www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 iyul 2016-cı il Bazar ertəsi № 154 (6475) Qiymətı 60 qəpik

**Xəbər**

## Şəmkirdə iki 17 yaşlı gənc dəhşətli avtoqəzada öldü

yazısı səh.14-də

**Gündəm**

### Türkiyədəki hərbi çevrilişin təfərrüatları - sifariş haradan gəlib?



Qiyamla bağlı müdhiş iddialar var, kütləvi həbslər davam edir; ABŞ və Gülənin əl izləri axtarılır; Putin olayla bağlı Ərdoğana telefon açdı...

yazısı səh.3-də

### Növbəti bahalaşma dalğası gəlir, çörək də ...

yazısı səh.10-da

### Moskvada Qarabağ danışıqları - sıçrayış olacaqmı?

yazısı səh.11-də

### Türkiyədə hərbi çevriliş cəhdi, türk pilotu və Gülənin taleyi...

yazısı səh.9-da

*Mirmahmud Mirəlioğlu:*

### "Azərbaycanda dövlətçilik psixologiyası zəifdir"

yazısı səh.6-da

### İŞİD-in hədəfində olan şiə ziyarətgahları Bakıda necə qorunur? - Əməkdaşımızın araşdırması

yazısı səh.13-də

### Azərbaycanda viruslu yumurtalar satılır

yazısı səh.14-də

### Aldadılan qızıl alverçisinin başına gələnlər - müxbirimizin dələduzluqla bağlı ilginc məhkəmə qeydləri

yazısı səh.12-də

### Bakıda onlarla uşaq ölüm təhlükəsi ilə üz-üzədir

yazısı səh.12-də

### "Türkiyədəki son olaylar İŞİD-in işini asanlaşdıracaq" - təhlükəsizlik ekspertindən xəbərdarlıq

yazısı səh.2-də

## Aprel hərbi uğursuzluğunun Ermənistanda əks-sədası

# SƏRKİSYANA QARŞI SİLAHLI QİYAM: İRƏVANDAKI QANLI OLAYIN SİRRİ

Müxalifət silahlıları Daxili Qoşunların və polisin binasını ələ keçirdilər; yüksək çinli məmurların bir neçəsi girov götürüldü; şəhərə qoşun hissələri yeridildi; ölən və yaralananlar var; ölkə vətəndaş müharibəsi astanasında...




yazısı səh.8-də

## Bakıdakı sirli yanğınlarla bağlı yeni sensasion təfərrüatlar

Binəqədidəki hadisədən əvvəl və sonra baş verən yanğınların bir-biri ilə əlaqəli olması versiyası güclənir; Gəncədə əllərində dizel yanacağı ilə tutulan Rusiya vətəndaşını MTN polisdən niyə alıb?

yazısı səh.5-də



*Vahid Əhmədov:*

### "İndiki şəraitdə başqa çıxış yolu görmürəm"

yazısı səh.7-də



*Fazil Mustafa:*

### "Kiminsə Türkiyəni islamlaşdırmaq hədəfi ola bilməz"

yazısı səh.9-da



### Elmar Hüseynov doğum günündə məzarı başında anıldı

yazısı səh.4-də

# 18 iyul 2016



# "Türkiyədəki hərbi çevriliş cəhdi İŞİD-in işini asanlaşdıracaq"

## **Ekspert:** "Bu olaylar Türkiyə dövlətini çox zəiflədəcək"

İyulun 15-də Türkiyədə hərbi çevrilişə cəhd etmək istəyən qrupun qarşısı alınsa da, bu, yüzlərlə insanın qanı bahasına başa gəldi. Eyni zamanda məlumatlara görə, bu hadisələr nəticəsində 1500 nəfər də yaralanıb.

Bütün bunları nəzərə almaqla demək olar ki, Türkiyədə hərbi çevrilişə cəhd nəticəsində ölən və yaralananların sayı, ölkədə son aylar baş verən terror hadisələrində xəsarət alanların sayından dəfələrlə çoxdur.

Bu olayların Türkiyənin bundan sonrakı təhlükəsizlik məsələlərinə, terrorla mübarizəsinə necə təsir etməsi barəsində "Yeni Müsavat"a sabiq MTN zabiti İlham İsmayıl danışıb. Onun sözlərinə görə, baş verən hadisələr Türkiyədə İŞİD və digər bu kimi terror təşkilatlarının işini asanlaşdırdı: "Öncə qeyd edək ki, bundan sonrakı proseslərdə də Türkiyədə indiyə qədər aparılan siyasət qəti formada davam etdiriləcək. İŞİD-ə terror etməsi üçün şərait yaratmasına gəlincə isə deyə bilərik ki, bu qruplaşma təkcə öz arzuları ilə hərəkət etmir. Burada başqa dövlətlərin də arzu və istəklərinin təsiri var. Eyni zamanda, yeri gələndə Türkiyəyə də təzyiq vasitəsi kimi İŞİD-dən istifadə olunur. Ona görə də mümkündür ki, İŞİD üçün çox yaxşı bir məkan yaranır".

Ekspert bildirib ki, Türkiyədə aparılan sorğular nəticəsində məlum olub ki, burada 19 faiz İŞİD tərəfdarı var: "Bu, böyük rəqəmdir. Bu baxımdan İŞİD yeri gələndə Türkiyədə çox sərbəst hərəkət edəcək. Doğrudur, Türkiyə xüsusi xidmət orqanları buna mane olmağa çalışacaq. Ancaq indiyə nə qədər mane olubsa, ondan artığını edə bilməyəcək. Bəyanatlarda deyirlər ki, Türkiyə Silahlı Qüvvələri bizim göz bəbəyimizdir. Ancaq indi bu qüvvələri elə alçaltdılar ki, onlar hazırda gözdən düşmüş vəziyyətdədir. İndiyə qədər türkün Osmanlıdan bəri fəxr etdiyi əsgər indi artıq həmin pillədə deyil. Onun yerini artıq radikal islamçılar tutub. Məsələ burasındadır ki, indi heç Türkiyə Böyük Millət Məclisində (TBMM) "demokrasi" sözünü desələr də Atatürkün adını heç çəkən də yoxdur. Bütün bunlar çox qəribədir".

İlham İsmayıl Türkiyənin bu hadisələrdən sonra ümumi təhlükəsizlik məsələsinin necə olacağı barəsində də danışıb: "Türkiyədə təhlükəsizlik indiyə qədər hansı səviyyədə qorunubsa, bundan sonra da eyni gücdə qorunacaq. İnsanlar görəv başındadırlar və öz vəzifələrini icra edəcəklər. Ancaq bunu hansı səviyyədə edəcəklərini zaman göstərəcək. Hazırda Avropa Birliyi qanuni seçilmiş hakimiyyətə qarşı qiyamı pisləyir. Ancaq bundan sonra ola biləcək repressiyaların tərəfində deyil. Avropa Birliyi də görür ki, həqiqətən də burada repressiv hərəkət başlanıb. Birdən-birə 3 minə qədər hakimin, prokurorun, müstəntiqin gözaltına alınması nə deməkdir? Məhkəmə ilə prokurorun bu məsələyə nə aidiyyəti var? Eyni zamanda bunu qəsdən Fətullah Gülənlə əlaqələndirərək, hadisəyə demokratik deyil, dini don geyindirirlər. Bu da doğru deyil. Qəsdən Amerikadan tələb ortaya atılıb və bu gün də xəbər kanallarında bu məsələ müzakirə olunur. Fətullah Gülənin təsiri var, ancaq bu səviyyədə deyil. Baş verənlər, həbslərlə Türkiyə dövləti özü özünü sarsıdır. Kütləvi şəkildə repressiya başlamaq doğru deyil. Hakim, prokuror mövcud iqtidarı sevmirsə, bunun hüquqa da heç bir dəxili yoxdur. Qeyd etdiyim kimi, bu olaylar Türkiyə dövlətini çox zəiflədəcək".

❑ **Əli RAİS**

# Sərkisyanın arvadı İspaniyada pul "yuyurmuş"

**Bu günlərdə İspaniyada böyük cinayətkar qrupun fəaliyyətinin qarşısının alınması əməliyyatı zamanı Barselonanın ən təmtəraqlı restoranlarından biri "Yubar"ın sahibi Arman Mailyan həbs edilmişdi.**



Virtualaz.org-un xüsusi müxbiri Vahan Martirosyanın əldə etdiyi xəbərdə bildirilir ki, rəsmi məlumatlara görə, cinayətkar qrup 11 şəxsdən ibarət imiş və əsasən də, MDB ölkələrindən müəyyən şəxslər üçün pulların yuyulması ilə məşğul olurmuş. Həbs edilənlər arasında Kiyevin keçmiş merinin oğlu Stefan Çernovski də olub.

Mailyanın köməyinə hamıdan əvvəl Kiyevin erməni icmasının rəhbəri, MDB-nin kriminal dairələrində yaxşı tanınan Norik Qevorkyan çatıb.

Mailyana kömək etmək cəhdlərini nümayişkaranə şəkildə göstərən Gevorkyan KİV-ə bildirib: "Mən Armana zəng etməyə çalışırdım, amma alınmadı. Onun doğmaları ilə danışdım, onlar dedilər ki, İspaniya hökumətinə sadəcə olaraq ermənilərə qarşı olan bu səs-küyü işi "bişirmək" lazım idi. Mən də belə düşünürəm, çünki Arman tərəfindən orada hansısa 10 milyon avronun yuyulması haqqında danışanda bu, mənə gülməli gəlir. Bu, onun səviyyəsi deyil, onların da səviyyəsi deyil. Stefan 1 milyarddan çox dollara malikdir, belə xırda işlərlə məşğul olmaq onun nəyinə lazımdır... Armanın çox gözəl vəkili var, bizim səfirlik də bu işə qarışacaq, hər şey qaydasında olacaq. Çoxları Armanın arxasında gizlənir".

Ermənistanda son bir neçə ildə israrlı şayiələr gəzirdi ki, katolikos Qereqin və prezidentin həyat yoldaşı Rita Sarkisyan məhz İspaniyada onlarla milyonlar dolları və avronu yuyublar. Amma iki il əvvəl keçmiş baş nazir Tiqran Sərkisyanla və baş keşiş Navasard Kçoyanla olduğu kimi, burada da əsaslı dəlillər olmadığından bu deyilənlər də şayiələr səviyyəsində qaldı. Ancaq çəkilən birgə fotolar göstərir ki, bu insanlar pulların yuyulması ilə həqiqətən də məşğul olublar.

# İki ildən çox həllini gözləyən problem

**Nəhayət ki, hər gün tıxac olan, tez-tez avtomobil qəzalarının baş verdiyi, avtobus və taksi sürücülərinin özbaşınalığının hökm sürdüyü yolda piyada keçidi tikilir.**

Söhbət Sabunçu rayonu Şəhər şossesinin başlanğıcındakı hissəsindən gedir. Keçmiş "Sabunçu dairəsi", indi isə "Sabunçu körpüsü" kimi bilinən bu ərazidə hər gün axşam saatlarında avtomobil tıxacı yaranır. Səbəb "Koroğlu" metro stansiyasından gələn bütün avtobusların ilk dayanacağı bura olmasıdır. Avtomobil sıxlığı olan bu yolun iki zolağının da taksi sürücüləri tərəfindən zəbt edilməsi, daim müşahidə etdiyimiz marşrut sürücülərinin özbaşınalığı şosenin bu hissəsini keçilməz edib.



Tıxacın səbəblərindən biri də avtobusların dayandığı ərazidə piyada zolağının olmasıdır. Onsuz da tıxac olan bu yolda piyadaların da tez-tez yolu keçməsi, avtomobillərin onlara yol verməsi də hərəkəti təbii olaraq ləngidir.

Yolda piyada zolağı olsa da axşam saatlarında avtomobillərin yüksək sürətlə hərəkət etməsi dəfələrlə qəzalara səbəb olub. İnsan itkisi ilə də nəticələnən qəzaların sayı da az deyil.

Sürücüləri və bu ərazidə yaşayan sakinləri narahat edən bu problem və onun yaranma səbəbləri barədə bir neçə dəfə məlumatlar dərc etmişik. 2 ildən artıqdır mövcud olan problemin həlli üçün nəhayət ki, işlər görülməyə başlanıldı.

Artıq əsas problemin - piyadaların hərəkətinin rahat şəkildə təmin edilməsi üçün keçidin tikintisinə başlanılıb. əvvəlcə bir müddət əvvəl magistral yolun kənarında ucaldılan hasar sökülüb. "Azəravtoyol" ASC-dən verilən məlumata görə, uzunluğu 42.3 metr olan yerüstü piyada keçidinin inşasına start verilib. Fiziki qüsurlu insanların hərəkəti üçün də xüsusi panduslar quraşdırılacaq. Keçidin pilləkənlərinin uzunluğu 32,7 metr olmaqla qalereyasının uzunluğu 75 metr olacaq. Layihə çərçivəsində keçidin qalereyasının eni 4 metr, hündürlüyü 3.6 metr, yol səthindən hündürlüyünün isə 5.5 metr olması nəzərdə tutulub.

"Azəravtoyoldan" verilən məlumatda deyilir ki, yerüstü piyada keçidi piyadaların rahat və təhlükəsiz şəraitdə avtomobil yollarını keçməsi, avtonəqliyyat vasitələrinin fasiləsiz və maneəsiz hərəkətini təşkil etmək məqsədi ilə tikilir.

## Bakıda dəhşətli avtobus qəzası - 21 yaralı

**Dünən Bakının Suraxanı rayonu ərazisində, Heydər Əliyev prospektində ağır yol qəzası baş verib. Lent.az-ın məlumatına görə, prospektin "Aeroport yolu" kimi adlanan hissəsində metronun "Koroğlu" stansiyası ilə Bilgəh qəsəbəsi arasında sərnişindaşıma ilə məşğul olan 171 saylı xəttin "Daewoo" markalı avtobusu ilə "Shacman" markalı yük maşını toqquşub.**

Hadisə nəticəsində avtobus aşıb, yük maşını yoldan çıxıb. Daha sonra isə "VAZ-2107" markalı maşın aşan avtobusa çırpılıb. Sabunçudakı 3 saylı şəhər klinik xəstəxanasından sayta bildirilib ki, qəzadan sonra 21 nəfər yaralı tibb müəssisəsinə daxil olub. Onlar arasında ağır xəsarət alanlar da var. Yol Polisindən isə bildirilib ki, qəzadan sonra ərazidə tıxac yaranıb və sıxlıq tədricən aradan qaldırılır. Faktla bağlı araşdırma aparılır.



## Bu gün 42 dərəcə isti olacaq

**İyulun 18-də Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, şimal küləyi gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun gecə 22-26° isti, gündüz 32-37° isti olacağı gözlənilir. Bakıda gecə 24-26° isti, gündüz 35-37° isti olacağı gözlənilir.**

Abşeron çimərliklərində dəniz suyunun temperaturunun Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 20-21°, Buzovna, Mərdəkan, Şüvəlanda 22-23°, Türkan, Hövsan, Sahil, Şıxda 24-25° isti olacağı gözlənilir. Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Temperaturun gecə 23-28° isti, gündüz 36-40°, bəzi yerlərdə 42° isti, dağlarda gecə 15-20° isti, gündüz 26-31° isti olacağı gözlənilir.

## Düzəliş

**Qəzetimizin 16-17 iyul sayında dərc olunmuş Elşad Paşasoyun yazdığı "Sərkisyanı Qarabağda qarşılayası "dron" sərlövhəli köşə yazısının müəllifi texniki yanlışlıq səbəbindən Hüseynbala Səlimov göstərilib.**

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalları rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:**

**15 iyul gecəsi Türkiyə xalqı şok yaşadı. 3 minə yaxın hərbiçinin iştirakı ilə hərbi çevriliş cəhdi baş verdi. Lakin türk xalqının iradəsi ilə qiyamçılar niyyətlərini həyata keçirə bilmədilər.**



# Türkiyədəki hərbi çevrilişin təfərrüatları - sifariş haradan gəlib?

## Qiyamla bağlı müdhiş iddialar var, kütləvi həbslər davam edir; ABŞ və Gülənin əl izləri axtarılır; Putin olayla bağlı Ərdoğana telefon açdı...



**Elxan Şahinoğlu:** “Ərdoğan həyatı ilə rus ruleti oynamazdı, çünki...”
**Hikmət Hacızadə:** “Bu qiyam emosional avantüra idi...”

15 iyulda yüzlərlə insan həyatını itirdi, yaralandı və minlərlə şəxs həbs edildi. Hadisə ilə bağlı konkret rəqəm söyləmək mümkün deyil. Çünki hər keçən an ölü və yaralıların sayının çox olması barədə yeni xəbərlər yayılır, həbs edilənlərin sayı isə artmaqdadır.

Artıq şübhəli şəxs qismində 6 mindən çox şəxs saxlanılıb. Bu barədə Türkiyənin ədliyyə naziri Bekir Bozdağ məlumat verib. Həbs edilənlər arasında ilkin dindirmədən sonra sərbəst buraxılanlar da var. Prezident Rəcəb Tayyib Ərdoğanın tətildə olduğu Marmarisin hadisə gecəsi bombalanması qiyamın nə qədər ciddi olduğuna bir işarə idi. Onun dili ilə desək, dəqiqələr Türkiyə rəhbərini ölümdən ayırıb.

Hadisənin ilk günü Azərbaycan prezidenti İlham Əliyev qardaş ölkədə baş verənləri türk xalqına qarşı cinayət kimi qələmə verərək, çevriliş cəhdini kəskin şəkildə pisləyib. Dünyanın güc mərkəzləri hesab olunan dövlətlər də birmənalı şəkildə AKP hökumətinin yanında olduqlarını bəyan ediblər. Rusiya prezidenti Vladimir Putin türkiyəli həmkarına zəng edərək başsağlığı verib və dövlətin konstitusion quruluşuna qarşı fəaliyyətin yolverilməzliyi ilə bağlı ölkəsinin prinsipial mövqeyini ifadə edib.

Dünən qiyam yatırılandan sonra Yunanıstana qaçaraq sığınacaq istəyən 8 türk hərbçinin taleyinə aydınlıq gəlib. İçərisində 8 qiyamçının olduğu türk helikopteri geri qaytarılıb. Türkiyənin cənubundakı “İncirlik” hərbi bazasının komandanlığı da dövlət çevrilişinə cəhddə iştirak ittihamı ilə həbs edilib. Hərbi Hava Qüvvələri bazasının komandanlığı Adana vilayətinin cənub hissəsində saxlanılıb. Məlumatda bildirilir ki, hərbi bazanın rəhbəri ilə yanaşı, daha 10 yüksək rütbəli zabit saxlanılıb. Saxlanılan hərbiçilər arasından ittihamları qəbul etməyənlər də var. Həbs olunan generallardan Bülent Çolak, Kamil Haluk, Zafer Oğretici, Arif Bakır bildiriblər ki, xain deyillər.

Qiyamın lideri kimi təqdim edilən Akın Öztürk də bəyanatla çıxış edərək, cinayətin təşkilatçılarının adlarını açıqlayıb. O, bildirib ki, Ali Hərbi Şuranın üzvü kimi, qiyamın əvvəlindən axırına kimi Baş Qərargah rəisi Hulusi Akarın yanında olub və hərəkətlərini onunla koordinasiya edib.

Qiyamın baş verdiyi gecə ilk əsir götürülən və hadisənin səhərisi günü azad edilən Türkiyə ordusunun Baş Qərargah rəisi Hulusi Akarın boğazındakı ip izləri onun işgəncələrə məruz qalması faktını üzə çıxarıb. H.Akar girov götürülməsi və başına gələnlərlə bağlı geniş açıqlama verib. Özünə ən yaxın zabit həyati tərəfindən girov götürüldüyünü deyən Akar bildirib ki, qiyamçılar dövlət çevrilişi sənədini ona imzalatmaq istəyiblər. Hətta “bunu imzalasanız, həyatınız təhlükədə olmaz” deyə xəbərdarlıq da edilib. H.Akar ona silah çəkdiklərini, müqavimət göstərməyə çalışanda isə dava düşdüyünü deyib. Boynundakı göyərti izləri də bu zaman olub.

İyulun 17-dən etibarən qiyam zamanı həlak olanların son mənzilə yola salınmasına başlanılıb. Ölkədəki 85 min məsciddə şəhidlərin ruhuna dualar oxunub. Prezident Ərdoğan da şəhidlərin cənazə namazına qatılıb. Şəhidlərin üzəri Türkiyə bayrağı ilə örtülmüş cənazələri onların doğulduqları vilayət və şəhərlərə aparılaraq torpağa tapşırılır. Cənazələrin son mənzilə yola salınması mərasimi vətəndaşların böyük izdihamları ilə müşayiət olunur. Cənazə namazındakı çıxışında Ərdoğan xalqı meydanlardan çəkilməməyə çağırıb. Ölkə başçısı deyib ki, bu, 12 saata həll olunacaq məsələ deyil.

***

Qeyd edək ki, qiyamın baş verdiyi andan başlayaraq, hadisə ətrafında müxtəlif iddialar səsləndirilir. Hərbi çevrilişdə Amerikanın, o cümlədən, ABŞ-da yaşayan Fətullah Gülənin əlinin olduğu deyilir. Bunu Ərdoğan xalq qarşısında çıxışı zamanı Gülənin geri alınması ilə bağlı Amerikaya etdiyi müraciətdən də üstüörtülü sezmək olur. Doğrudur, Gülən və tərəfdarlarının açıqlamalarında bu inkar edilsə də, aktuallığını itirmir. Bundan əlavə, Ərdoğan hökumətinin qiyamla şou düzəltdiyi, əslində isə əvvəlcədən qiyamdan xəbərdar olması barədə də müdhiş iddialar var. Bu fikrə inananlar azlıq təşkil edirlər.

Hazırda Türkiyədə istirahətdə olan politoloq Elxan Şahinoğlu hərbi çevrilişin əvvəlcədən gözlənilmədiyini bildirdi: “Türkiyədə böyük əksəriyyət hərbi çevrilişin baş verəcəyini gözləmirdi. Kimsənin ağlına da gəlməzdi ki, PKK ilə qanlı mübarizə getdiyi dövrdə orduda bir qrup zabit çevriliş planlaya bilər. Onsuz da AKP hökuməti ”Balyoz” və “Ergenekon” əməliyyatları ilə ordunu xeyli zəiflətmişdi. Bundan sonra Ərdoğana çətin olacaq. Əlbəttə, çevriliş yatırıldı, Ərdoğan üstünlük qazandı, ancaq ordu içində başlayacaq kütləvi həbslər də Türkiyədə növbəti gərginliyə yol açacaq. İşin içində Fətullah Gülənin olub-olmadığını söyləmək çətin olsa da, Nur camaatı ilə əlaqədə şübhəli bilinənlərin həbslərinin sayı artacaq. Ərdoğan qiyamçı hərbçilər üzərində qələbədən sonra əlini gücləndirməyə çalışacaq, bu isə Türkiyə içində qarşıdurma nöqtələrini artacaq. Bu cür qarışıqlıqda PKK və İŞİD öz çirkin məqsədlərini həyata keçirməyə çalışacaq. Ancaq 15 iyul hadisəsinin tarix kitablarına yazılacağını da qeyd etmək lazımdır: Türkiyə tarixində ilk dəfə hərbi çevrilişin qarşısı alındı, sadəcə, qardaş qardaşı öldürdü, bu da tarixə qara ləkə kimi düşdü. Türkiyədə bundan əvvəlki hərbi çevrilişlərdə hansısa generalın ağlına parlament binasını bombalamaq kimi “düşüncə” gəlməmişdi. Yunanıstanla savaşan Atatürkün ordusundakı zabitlərin uğursuz çevrilişdən sonra helikopterlə Yunanıstana qaçmaları da Atatürk prinsipləri ilə uyuşmur. Atatürk ideyalarının bərpası uğrunda hərbi çevriliş etdiklərini irəli sürən qrup parlament binasını dağıtmaqla, qardaşlarına atəş açmaqla bir daha Atatürk prinsiplərinə zidd getdilər. İndiyə qədər olan hərbi çevrilişlərdə xalqın dirənişi də baş verməmişdi. Bundan sonra Türkiyədə hərbi çevriliş planlayanlar bilməlidirlər ki, qarşılarında yalnız hökuməti və polisi görməyəcəklər, qarşılarına xalq kütlələri də çıxacaq".

E.Şahinoğlu qiyamın arxasında Amerikanın dayandığı barədə iddialara da toxundu: “Uğursuz hərbi çevrilişin arxasında ABŞ-ın olduğunu düşünmürəm. Bu Vaşinqtonun nəyinə lazımdır? Doğrudur, Vaşinqtonun Ərdoğanın avtoritar idarəetməsindən xoşu gəlmir. Əgər hərbi çevriliş baş tutsaydı, bu Türkiyədə vətəndaş müharibəsinə yol açacaqdı, qardaş ölkənin İraq və Suriyadan fərqi olmayacaqdı. Ankara ABŞ-ın strateji tərəfdaşıdır. ABŞ-ın Türkiyədə hərbi bazaları var. Türkiyədə Suriyadakına bənzər xaos Amerikanın Türkiyədəki mövqelərini zəiflədəcək. Ona görə də hesab etmirəm ki, Vaşinqton türkiyəli hərbçiləri çevrilişə həvəsləndirib”.

Politoloq Gülən müəmmalarından da söz açdı: “İnanmıram ki, çevrilişdə iştirak edənlərin tamamı Fətullah Gülənin nəzarətində olub və ya ona itaət ediblər. Çevriliş edənlər nəyə görə özlərinin və ailələrinin həyatlarını Amerikada gizlənən Gülənə görə riskə atmalıydılar? Böyük ehtimalla, generallar şəxsi səbəblərdən çevrilişə əl atıblar. Düşünüblər ki, bu yolla Ərdoğandan və onun siyasətindən qurtula bilərlər. Başqa səbəb o ola bilərdi ki, həmin zabitlər vaxtından əvvəl istefaya göndərilmək istəməyiblər. Gülənə gəldikdə, Vaşinton onu Ərdoğana təhvil verməsə, iki ölkə arasındakı münasibətlər daha da soyuyacaq və bu, Ankaranın daha çox Moskvaya yaxınlaşmasına rəvac verəcək”.

Müsahibimiz Ərdoğanın şou düzəldiyi barədə fikirlərin hakim olduğunu söylədi: “Azərbaycanlı ekspertlərin və siyasilərin bir hissəsində belə bir hiss var ki, çevriliş şou idi. Türkiyədə müzakirə apardığım insanların çoxunda da eyni hiss var. Mənə də elə gəlir ki, Ərdoğan orduda hansısa narazılıqdan əvvəlcədən xəbərdar olub. Çünki yüzlərlə zabit aylardır çevriliş planı hazırlayır, haradasa görüşürlər, fikir mübadiləsi aparırlar və bundan Milli İstihbarat Təşkilatının xəbəri yoxdur. Daxildə yüzlərlə insanın çevriliş müzakirələri kənara sızmalıydı. Ərdoğan çevrilişsiz bütün istəklərini qısa müddətdə həyata keçirə bilməzdi, indi isə əli xeyli gücləndi. Bir başqa şübhə isə ondan ibarətdir ki, çevriliş günü minlərlə hakim və prokuror dərhal işdən çıxarıldı. Bir gündə bu qədər adamın Gülənlə və ya çevrilişi planlayanlarla əlaqəsi necə üzə çıxdı? Deməli, işdən çıxarılanların siyahısının çevrilişdən əvvəl tərtib olunduğu şübhəsi var. Bir sözlə uğursuz çevrilişlə bağlı sualların sayı çox olduğundan bunun şou olduğuna inananların sayı az deyil. Ancaq bütün hallarda Ərdoğan özünə qarşı belə bir oyuna imkan verməzdi. Çünki bu ölkəni və özünün həyatını riskə atmağa bənzəyərdi. Ərdoğan həyatı ilə rus ruleti oynamazdı. Türkiyənin rəsmiləri Rusiyanın hərbi təyyarəsinin də məhz hazırki çevrilişçilər tərəfindən vurulduğunu bildirirlər. Başqa sözlə, hərbi çevrilişi planlayanlar əvvəlcə Ankara ilə Moskvanın əməkdaşlığını pozmaq istəyiblər və buna Ərdoğan Putindən üzr istəyənə qədər nail olublar. Bu iddiada həqiqət payı odur ki, Türkiyədə çevrilişin əsas qüvvəsi məhz hərbi hava qüvvələrində cəmləşmişdi. Əgər həqiqətən Rusiyanın təyyarəsini vurmaq çevrilişçilərin və onların arxasındakı Fətullah Gülənin planı olubsa, niyə həmin zaman Ərdoğan bunun üstünü açmadı, daxildə komissiya yaradıb məsələni özü üçün aydınlaşdırmadı. Əksinə, sərhədi pozan təyyarənin vurulmasına haqq qazandırdı, baş nazir Əhməd Davudoğlu isə ”təyyarəni vurmaq əmrini mən vermişəm" kimi açıqlamanı səsləndirdi? Ankara bununla sanki bir daha Moskvadan üzrxahlıq edir ki, sizin təyyarəni biz yox, bizim daxili düşmənlərimiz vurub. Görək buna Kreml nə deyəcək? Görünür, Ərdoğan uğursuz hərbi çevrilişlə iki dovşan vuracaq, birincisi, orduda və idarəetmə sistemində təmizlik işlərini gücləndirəcək, ikincisi, Moskva ilə daha çox yaxınlaşmağa çalışacaq. Ancaq Ərdoğan daha əvvəlki kim rahat işləyə də bilməyəcək. Hər zaman arxasına baxacaq. Bu hadisə Ərdoğana həm də onu anlatmalıdır ki, o çoxluğun səsinə güvənərək Cümhurbaşqanlığı müddətini uzatmaq istəsə, daxildə və xaricdə onun idarəetməsindən yorğunluq artacaq. Ərdoğan özünə varis seçib bir müddət sonra hakimiyyətdən getsə, bu, Türkiyənin xeyrinə olar, gələcək şəxs doğru və ya yanlış siyasət yürüdə bilər. Ancaq önəmlisi, yeni nəfəsin Türkiyə siyasətinə daxil olmasıdır. Məsələn, Binəli Yıldırım baş nazir olaraq ilk gündən ölkəsi üçün vacib addımlar atıb, qonşularla münasibətlərin normallaşması siyasətinə baş vurub, iqtisadiyyatı dirçəltməyə çalışır. Fikrimcə, yaxın perspektivdə Ərdoğanı Cümhurbaşqanlığı görəvində Yıldırım layiqincə əvəz edə bilər. Ancaq əlbəttə ki, buna Türkiyə vətəndaşları qərar verməlidir".

Politoloq Hikmət Hacızadə ordunun qiyamını dəstəkləməyin mümkünsüz olduğunu qeyd etdi: “Bu qiyam nə ordu, nə xalq tərəfindən dəstəklənib. Burada Ərdoğanın da günahı var. Onun siyasəti bəzi hissədə avtoritardır. Özünə dörd tərəfdə düşmən yaradıb. Amerika tərəfindən bunun təşkili mənasız iddialardır. ABŞ təşkil edən hadisələr belə bitmir. Orada Amerikanın dəsti-xətti görünmür. Gülənin qiyamda iştirakı ilə bağlı sübutlar varsa, ortaya qoysunlar. Belə hadisələrdə göz önünə gələn hər kəs günahlandırılır. Bu qiyam emosional avantüra idi”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 154 (6475) 18 iyul 2016



# Böyük Türkiyə, ayaqda olan millət və peşəkar media

Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**İyulun 15-dən 16-na keçən gecə Türkiyədə gerçəkdən bir şok yaşandı. Öncədən heç bir qığılcım, mübahisələr görünmədiyi və hansısa həyəcanlı xəbərlər dolaşmadığı halda, birdən-birə İstanbul küçələrində hərbi texnikalar, səmada hərbi helikopterlər görünməyə başladı.**

Daha sonra hərbi texnika İstanbul körpüsünü bağladı. Ardınca Ankarada da oxşar hadisələr cərəyan etməyə başladı. Türkiyə paytaxtının küçələrində də hərbi texnika görünməyə başladı. Təxminən 1 saat ərzində heç kim nə baş verdiyini anlaya bilmədi. Az sonra bunun əsgəri hücum, hərbi çevriliş cəhdi olduğu aydınlaşdı.

Başda Azərbaycan olmaqla, bütün türk dünyası, region və dünya dövlətlərinin gözü yumulmadı; bütün gözlər qardaş ölkəyə yönəldi...

Azərbaycanın aktiv insanları, facebook əhli gecəni səhərədək yatmadı. Təsəvvür edin, saat 05 radələrində Türkiyədəki hadisələri əks etdirən xəbər qoyurduq, təxminən 5 dəqiqə sonra oxu sayı 1500-2000-ə çatırdı. Hansı ki, adi günlərdə həmin saatda qoyulan xəbərləri 15-20 nəfər oxuyurdu. Çünki hamı yatırdı. Ötən gecəni isə çoxlarımız dirigözlü açdıq. Bu, o demək idi ki, Azərbaycan insanı gerçəkdən Türkiyəni özününkü, öz məmləkəti hesab edir və orada baş verənləri həyəcanla izləyir...

Başıpozuq hərbçilər TRT-ni zəbt edib silah gücünə aparıcıya bəyanat oxutduran saatlarda çoxları "məsələ artıq bitdi", "Türkiyənin halı nə olacaq" deyə, sosial şəbəkələrdə status yazaraq hayqırır, vahim bir hisslər ifadə edirdilər. Xüsusilə polis və hərbçilərin toqquşduğuna, Türkiyə Böyük Millət Məclisinin bombalandığına dair xəbərlər yayılanda insanlar lap tədirgin oldular.

Lakin Türkiyənin böyüklüyünə şübhə etməkmi olar? Məgər bir qrup başıpozuq Türkiyəni sarsıda bilərdimi? Qətiyyən yox!

Bir sıra insanlar Ərdoğanı yamanladı, AKP hökumətinə nifrət dolu statuslar facebookda "göydə uçurdu". Ancaq bizim bildiyimiz gerçəklik odur ki, Türkiyə xalqı AKP hökumətinə böyük faizlə səs verib. Orada seçkilər saxtalaşdırılmayıb; istər zəlzələdən, istərsə də vəlvələdən Ərdoğan və onun hökuməti xalqdan səs alıb. Səs sahiblərinin sakitcə bir dəstə çevirimçinin qarşısına dərhal çıxacağı sözsüz idi. Və belə də oldu.

İkincisi, AKP hökumətindən xoşumuz gəlməyə bilər, amma Türkiyədə baş verənlərdə çevrimçilərə haqq qazandırmaq geri zəkalılıqdan başqa bir şey ola bilməzdi. Ən azı iki səbəbdən:

1. İstənilən hərbi çevriliş dövləti azı 30 il geri salır.

2. Başıpozuq dəstənin Türkiyədən kənarda olan, yaxud xarici kəşfiyyat orqanları tərəfindən körükləndirildiyi ehtimalı böyükdür.

Yəni burada hədəf Türkiyə dövləti idi. Təsəvvür edin ki, Türkiyə dövləti kiçicik bir zəiflik göstərmiş olsaydı, yanlış yapsaydı, millət ayaqda olmasaydı, peşəkar media olmasaydı və nəticədə bu başıpozuq qüvvələr öz niyyətlərinə çatsaydılar, bu gün qardaş ölkə hansı halda idi? Bunu təsəvvür etmək belə mümkün deyil! Məgər Kılıcdaroğlu, Baxçəli sizin qədər bilmirdimi nə baş verdiyini? Əgər onlar Türkiyə dövlətinin yanında olduqlarını deyirdilərsə, qiyamçıları lənətləyirdilərsə, bundan dərhal nəticə çıxarılmalı idi. Hansı ki, bizdə bəziləri az qala onlara "satqın" damğası vururdu...

Baş verənlərin mahiyyəti, məqsədi, bunun arxasında kimlərin dayandığı, 200-ə yaxın Türkiyə insanının ölümünün baiskarları, əsgərləri alçaldanların missiyası da heç şübhəsiz ki, çox qısa müddətdə hər kəsə əyan olacaq.

İndi onlardan danışmaq bəlkə də tezdir. Hələlik yalnız 4 detalı xüsusi vurğulamaq və bunlardan özümüz üçün də nəticə çıxarmalıyıq:

**1.** Türkiyədə dövlətçilik anlayışı sanki qanlara hopub.

**2.** Türkiyə xalqı çox ayıq-sayıqdır, onu aldatmaq, təxribatlara çəkmək mümkün deyil.

**3.** Türkiyədə həlledici fiqurlar əlçatandır, ən kritik anda belə media onlara telefon açıb canlı efirə qoşa bilir.

**4.** Türkiyədə çox güclü media var.

Sonuncu amilin üzərində xüsusi dayanmaq lazımdır. Türk kanalları, saytları məni heyran edəcək səviyyədə çalışdılar. Belə peşəkar mediası olan dövlətdə çevriliş cəhdi etmək ağılsızlıq olardı...

Heç bir dövlət təxribatlardan, kritik anlardan sığortalı deyil. Odur ki, ən azı Türkiyədəki kimi bir TV-miz, saytlarımız olmalıdır. Xalqı isə əzmək yox, sevmək və mübariz ruhlu etmək lazımdır ki, hansısa məqamda o özü qabağa çıxsın, təşkilatlanmış şəkildə!



# Elmar Hüseynovun doğum günü məzarı başında anıldı

## Yaşasaydı, dünən 49 yaşı tamam olacaqdı...

**İyulun 17-də mərhum jurnalist, "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun doğum günü qeyd edilib. Jurnalistin anım mərasimi üçün yaxınları, dostları, siyasi-ictimai xadimlər, partiya sədrləri və jurnalist həmkarları onun İkinci Fəxri Xiyabandakı məzarı başına toplaşıblar.**

hakimiyyət hələ də müstəqil medianın dəyərini bilmir. Mən əminəm ki, oxşar hadisə Azərbaycanda baş verərsə, hakimiyyətin bəslədiyi media orqanları qaçacaqlar. Mən bu gün qətlə yetirilən jurnalistləri xatırlamaq istəyirəm. Alim Kazımov, Novruzəli Məmmədov, Rafiq Tağı və ən son Rasim Əliyev. Nə qədər ağır repressiya olsa da, müstəqil mətbuat hələ də var. Biz söz monopoliyası ilə razılaşmayacağıq. Mübarizə davam edir".

Tədbirdə çıxış edən Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər bildirib ki, əvvəl-axır Elmar Hüseynovun qatilləri öz cəzalarını alacaqlar: "Biz Azərbaycanda Elmar kimi cəsarətli jurnalistlərin olması ilə fəxr edirik. Əvvəl-axır Elmarın qatilləri qanun qarşısında cavab verəcək və o gündən etibarən 17 iyul Azərbaycan mediası üçün bayram kimi qeyd ediləcək. Bu günlərdə Türkiyədə baş verən hadisələr bir daha azad medianın önəmini ortaya qoydu. Dövr dəyişib, vəziyyət əvvəlki kimi deyil. Dövlət telekanalını tutmaqla medianı ələ almaq olmaz. Artıq onlarla azad media orqanı var. Həmin media qurumları Türkiyədə baş verənləri anbaan xalqa çatdırdı. Ölkə rəhbərliyi də müasir təchizatlardan, sosial şəbəkələrdən istifadə edib, xalqa çağırış etdi. Azad media və müasir kommunikasiyalar bu dərəcədə önəmlidir və mən inanıram ki, bu, təkcə Türkiyə üçün yox, bütün ölkələr üçün dərs olacaq. Medianın, jurnalistlərin toxunulmazlığının nə qədər önəmli olduğunu anlayacaqlar".





"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev: "Elmarın vaxtilə dediyi və mübarizə apardığı durum, məncə, gələn il Azərbaycanda daha çox reallaşacaq. O deyirdi ki, həmin o hakimiyyət Azərbaycanı böhrana gətirəcək və elə də oldu. 2005-ci il hadisəsinin səbəbi onun həmin günlərdə daha şiddətli mübarizə aparması ilə bağlı idi. Çünki görürdü ki, proses yaxşılığa doğru getmir. Elmar yüksək intellektə və zəkaya sahib idi. O, bizim bu günlərimizi 10 il öncədən gördü. Allah ona rəhmət eləsin".

Müsavat Partiyasının başqanı Arif Hacılı: "Həmin dönəmdə müxalif, müstəqil, azad jurnalistlər çox idi. Amma Elmar Hüseynov onların arasında fərqlənirdi, seçilirdi. Onun qətlə yetirilməsinin də səbəbi məhz bu oldu. Həmin günlərlə indiki zaman arasında böyük fərq var. Müqayisə etsək, görərik ki, artıq azad, müstəqil media və jurnalistlər çox azdır. Mən fəxr edirəm ki, şəxsən Elmarla yaxından tanış olmuşam. O, sağlığında müstəqil jurnalistikanın simvolu idi. Ölümü ilə əbədi olaraq Azərbaycan müstəqil jurnalistikasının simvoluna çevrildi. Allah ruhunu şad etsin".

"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı: "Biz ildə 2 dəfə buraya toplaşırıq. Həm Elmarı yad edirik, həm də bir media hesabatı veririk. Bu illər ərzində ciddi bir dəyişiklik olmayıb. Dəyişən odur ki, Elmarı qətl edən şəbəkə həbs olunub. İndi daha yüksək səslə onun əslində kimlərin öldürdüyü danışılır. Məlum olur ki, Elmarı qətl edənlər həm də onun istintaqını aparıblar. Tam mafiya xarakterli addımdır. Çünki mafiya başçıları düşmənlərini öldürüb, sonra yasına gedib, baş sağlığı verirlər. Müstəqil mətbuatı bütün "rıçaq"larından məhrum edirlər, yayım şəbəkəsini əllərindən alırlar. Eyni zamanda mətbuata böyük pullar verirlər. Yüzlərlə jurnalist prezidentə fəxri ad üçün müraciət edir. Yeni binalar tikilir. Redaksiyalar fərqli qayğılarla yaşayır - bu il kimlər neçə ev alacaq? Burada təbii ki, söz azadlığından söhbət gedə bilməz. Türkiyədəki hadisə müstəqil medianın dəyərini göstərdi. Bir zamanlar sosial şəbəkələri qadağan edən Ərdoğan, hadisə günündə xalqa sosial şəbəkələr vasitəsilə müraciət etdi. Çox təəssüf ki, Azərbaycandakı

E.Hüseynov 17 iyul 1967-ci ildə Bakıda anadan olub. 1983-cü ildə Əzizbəyov rayonundakı 234 saylı orta məktəbi bitirib və elə həmin il Azərbaycan İnşaat Mühəndisləri Universitetinə daxil olub. 1985-1987-ci illərdə sovet ordusunda xidmət edib. 1995-ci ildən etibarən jurnalist fəaliyyətinə başlayıb. Elə həmin ildə o, "Trend" analitik-informasiya agentliyini, 1996-cı ildə isə "Monitor" jurnalını təsis edib. "Bakinski bulvar", "Bakinskiye vedomosti" qəzetlərinin təsisçisi olub. "Bakı Bulvarı" qəzetinin və "Monitor" jurnalının baş redaktoru olub.

Sərt tənqidi yazıları ilə tanınan Elmar Hüseynov 2 mart 2005-ci ildə evinə gedərkən yaşadığı binanın blokunda güllələnib. Hadisənin üstündən 10 ildən çox vaxt keçməsinə baxmayaraq qətlin üstü hələ də açılmayıb. Elmar Hüseynovun qətlində hüquq-mühafizə orqanları Gürcüstan vətəndaşları Teymuraz Əliyevi və Tahir Xubanovu ittiham edir. Gürcüstan hakimiyyəti isə bununla bağlı onların günahını sübuta yetirən dəlillər təqdim olunmadığını bildirib.

Elmar Hüseynov qətlə yetirilən zaman "Monitor" jurnalının naşiri və baş redaktoru idi. Cinayətin üstü indiyədək açılmayıb. 2006-cı ilin sonlarında onun həyat yoldaşı Ruşaniyə Hüseynova oğlu Aslanla birgə Norveçə mühacirət edib. Orada siyasi sığınacaq alıb.

❑ Məhəmməd TÜRKMƏN

YENİ MÜSAVAT
N 154 (6475) 18 iyul 2016



# Bakıdakı sirli yanğınlarla bağlı yeni sensasion təfərrüatlar

## Binəqədidəki hadisədən əvvəl və sonra baş verən yanğınların bir-biri ilə əlaqəli olması versiyası güclənir; Gəncədə əllərində dizel yanacağı ilə tutulan Rusiya vətəndaşını MTN polisdən niyə alıb?

**Bakı Ağır Cinayətlər Məhkəməsində son illər Azərbaycan tarixinin ən məşum olayı - ötən il mayın 19-da Binəqədi rayonunda yerləşən 16 mərtəbəli binada baş vermiş yanğınla bağlı məhkəmə prosesi keçirilir. Prosesdə zərərçəkən ifadələrində üzə çıxan danılmaz faktlar, həqiqətlər iş üzrə aparılan istintaqı çox ciddi şəkildə şübhə altına alır. 15 nəfərin dünyasını dəyişməsi, 56 nəfərin xəsarət alması ilə nəticələnən yanğının qəsdən törədilməsi haqda iddialar getdikcə daha çox səslənməyə başlayır.**

**1-ci fakt**

2016-cı il iyulun 15-də keçirilən prosesdə zərərçəkən Naibə Mahmudova ittihamı darmadağın edən son dərəcə ilginc ifadə verib. Deyib ki, bina 27 saniyəyə kibrit qutusutək alışmazdan əvvəl binaya bitişik tikilinin damında yanan top şəklində iki bükülü görüb.

### Yanan bir-birindən 40-50 santimetr aralı olan sıxılmış kağız topaları idi

Zərərçəkənin məhkəmədə verdiyi ifadədən sitat:

"Yanıq iyi hiss etdim, rezin iyi gəlirdi. Aşağı baxanda gördüm ki, binaya bitişik qeyri-yaşayış sahəsinin üstündə 2 kağız topası yanır. Orada zibil-zad yox idi. Yanan bir-birindən 40-50 santimetr aralı olan sıxılmış kağız topaları idi. Siqaret tüstüsü kimi ağ tüstü çıxırdı. Tez qışqırdım ki, su tökün. Özüm də mətbəxdən qazanda su gətirib yuxarıdan tökdüm. Amma tüstünün artdığını görüb evdən çıxdıq. Biz aşağı çatanda artıq bina alışmışdı".

Zərərçəkənin məhkəmədə dediklərindən aydın olur ki, o, bu müəmmalı şəkildə yanan kağız topları haqda iş üzrə istintaq aparan qrupa da məlumat verib. Hətta onun ifadəsini yerindəcə videoya çəkməklə yoxlayıblar! Amma iş materiallarına əlavə etməyiblər!!!

Zərərçəkən məhkəmədə hakimə deyib ki, istintaq zamanı videoçəkiliş aparılıb və o, mənzilindən həmin hissəni - binanın damında sıxılmış vəziyyətdə olan topa kağızların yandığı yeri göstərib. Bəs, istintaqçılar bu haqda videonu, zərərçəkənin ifadələrinin yerində yoxlanılması haqda protokolu, zərərçəkənin ifadəsini iş materiallarına niyə əlavə etməyiblər? İstintaqın məqsədi həqiqətin üzə çıxmasıdırsa, bəs zərərçəkənin ifadəsi niyə yoxa çıxıb?

İstintaqın gəldiyi qənaətə görə, Binəqədidəki 16 mərtəbəli binanın poliuretan üzlüyü binaya bitişik 1 mərtəbəli tikilinin damındakı zibil topasının üzərinə siqaret külünün düşməsindən alışıb.

**2-ci fakt**

İyulun 15-də keçirilən prosesdə digər zərərçəkən Səbinə Orucovanın hakimə anlatdıqları da rəsmi versiyanı təkzib edir. S.Orucova bildirib ki, binaya bitişik olan qeyri-yaşayış sahəsinin üzərində binanın üzlənməsindən sonra zibil olmayıb. Bəs siqaret külünün düşdüyü zibilin alışması uydurması kimə lazımdır? Zərərçəkənlərin ifadələri ilə təkzib olunan bu versiyanın əsas götürülməsi hansı zərurətdən doğub?

### Faktlar...

Ötən saylarımızdan birində Binəqədidəki yanğından əvvəl və sonra ölkə ərazisində, xüsusən Bakı şəhərində qəsdən yandırılma hallarının qeydə alındığını yazmışdıq. Qeyd etmişdik ki, Azərbaycanın ev sahibliyi etdiyi Avropa Oyunları ərəfəsində və sonra ardıcıl yanğınlar törədilib. Həmin yanğınlar Binəqədidəki məşum olaydan fərqli olaraq sırf diqqət çəkməsi üzündən genişlənə, faciəvi sonluq olmadan söndürülüb. 2014-cü il noyabrın 26-da Bakıda, Qaraçuxur qəsəbəsində məscidin yandırılmasına cəhd olub. Gecəyarısı 2 şəxs məscidin içinə neft məhsulu ilə doldurulmuş 5-6 ədəd yarımlitirlik şüşə atıblar. Meydana gələn yanğın haqda məscid gözətçisi xəbər verdikdən sonra hadisə yerinə yanğınsöndürənlər cəlb olunub. Yanğın söndürülüb.

Bundan sonra 2015-ci il aprelin 10-da, Zığ şosesi küçəsi 16 ünvanında hündürmərtəbəli binanın üzlüyündə qəfil alışma sırf xoşbəxtlik üzündən tələfatsız ötüşüb. Binanın üzlüyündə yanğın giriş-çıxış qapıları olan hissədə başlasaydı, acı bir nəticə ola bilərdi.

2015-ci il mayın 16-da, Nərimanov rayonu, Koveroçkin küçəsində yerləşən hündürmərtəbəli binaya bitişik qeyri-yaşayış sahəsində qəsdən yandırılma faktı qeydə alınıb. Binaya gizli yolla daxil olan şəxslər neftə batırılmış kəndirləri binanın içində yandırıblar. Gecəyarısı alovun dillərini görən taksi sürücülərinin vaxtında FHN-ə xəbər vermələri, özlərinin alovun qarşısını almaları üçün tədbirlər görməsi acı sonluğun qarşısını alıb. Taksi sürücüləri alov dillərini vaxtında görməsə idi, alov rahat şəkildə qeyri-yaşayış sahəsində genişlənib tikilinin bitişik olduğu və "poliuretan"la üzlənmiş hündürmərtəbəli binasına keçəcəkdi.

Maraqlı məqamlardan biri budur ki, qəsdən yanğın törədilməsi haqda həmin günlərdən başlayaraq bu günə qədər rəsmi məlumat verilməyib!

Bilinən odur ki, binanın qəsdən yandırılması faktı üzrə Nərimanov Rayon Polis İdarəsinin İstintaq Şöbəsində yanğından sonra cinayət işi başlanılıb.

Məntiqlə Nərimanovdakı yanğından 3 gün ötmüş Binəqədidə baş verən, ölkəni yasa batıran yanğından sonra yaradılmış istintaq qrupu bu yanğınla da bağlı araşdırma aparmalı idi. İşləri eyni icraatda birləşdirməli, araşdırma aparmalı idi. Bunun üçün çox ciddi əsaslar da olub.

**1-ci məqam**

"Global-Stone" şirkəti Binəqədidəki binanı 2012-ci ildə, Nərimanovdakı binanı 2015-ci il mayın əvvəlində təmir edib, poliuretanla üzləyib. Nərimanovdakı bina qəsdən yandırılmazdan 9 gün əvvəl, mayın 7-də binanın açılışı prezidentin iştirakı ilə baş tutub.

**2-ci məqam**

Binəqədidəki bina Dövlət Miqrasiya Xidmətinin, Nərimanovdakı bina isə Hərbi Prokurorluğun bir addımlığında yerləşib. Dövlət qurumlarının bir addımlığının odlanması dövlətə "əlcək atmaq" deyildi ki?

Üstəlik, Avropa Oyunlarına qatılmaq üçün Azərbaycana gələn xarici qonaqlar Dövlət Miqrasiya Xidmətinə zəruri sənədləşmə aparmaq üçün getdikləri də nəzərə alınmalıdır. Hər 2 olay Nərimanovdakı və Binəqədidəki binalarda yanğınlar Avropa Oyunlarına sayılı günlər qalmış baş verib.

Maraqlıdır ki, bundan sonra da qəsdən yandırılmalar dayanmayıb. Əksinə ölkənin dörd bir tərəfində törədilməyə başlayıb.

Mayın 24-də Gəncədə, Dədə Qorqud küçəsində hündürmərtəbəli yaşayış binalarından birinin üzərində "drujinnik"lə 2 şübhəli şəxsi saxlayıblar. Gecəyarısı əllərində dizel yanacağı ilə dolu kanistrlərdə damda gəzənlərdən biri Samux rayonun sakini, digəri isə Rusiya Federasiyasının vətəndaşı olub. "Drujinnik"lər tutduqları hər iki şəxsi polisə təhvil veriblər. Hətta polisdən Gəncə İcra Hakimiyyətinə gecəyarısı damları əllərində yandırıcı maddə dolu kanistrlərlə gəzən şəxslər haqda məlumat verilib. Bu haqda MTN-in yerli şöbəsinə məlumat daxil olandan sonra hər iki şəxsi polisdən təhvil alıblar. MTN-ə aparılan hər iki şəxs sonradan istintaqa cəlb olunmayıb, barələrində cinayət işi başlanmayıb. Çox güman ki, onları polisdən azad etmək üçün təhvil alıblar. Bu şəxslərin kimlikləri niyə gizlədilib? Məqsəd nə olub?

2015-ci il iyunun 5-də Sumqayıt şəhərində Bayraq Meydanında Azərbaycanın keçmiş prezidenti Heydər Əliyevin üzərinə sözləri yazılmış plakat yandırılıb. Qəsdən yandırılma faktı üzrə bu günə qədər istintaqa cəlb edilənlər yoxdur. Cinayət işinin başlanması haqda da bilgi verilməyib. Deməli, cinayət işi başlanmayıb. Niyə?

2015-ci il iyunun 5-də, Sumqayıtdakı yanğından bir neçə saat ötəndən sonra Bakıda, Suraxanı rayonu, Qaraçuxur qəsəbəsində vətəndaşların şəxsi minik avtomobillərinin qəsdən yandırılması faktları qeydə alınıb. Naməlum şəxslər ayrı-ayrı vətəndaşlara məxsus 30-a yaxın bahalı maşının üzərinə neft məhsulu tökməklə yandırıblar.

### Eyni yanğın zəncirinin halqaları?

Bu faktlar bizə məlum olan, eyni yanğın zəncirinin halqaları olmasını söyləmək üçün çox ciddi əsaslar verən faktlardır. Mümkündür ki, bu halqalar bütün yanğın zəncirini əhatə etmir, amma ümumi mənzərəni canlandırır. "Niyə Azərbaycanın istintaq orqanları bu faktların üzərindən sükutla keçirlər" sualına birmənalı cavab vermək çətindir.

İstintaqın zərərçəkənlərin ifadələri ilə ziddiyyət təşkil edən bir istiqamətə yuvarlanmasının cavabı da bu sualdan keçir.

**3-cü məqam**

Diqqətçəkən bir məqam da Binəqədidəki yanğından dərhal sonra binaların poliuretan üzlüyünün sökülməsinə Binəqədidən deyil, vəhhabilərin çoxluq təşkil etdiyi ərazilərdəki binalardan başlanması olub. Olaydan 1 gün sonra vəhhabi məscidinin, 30-a yaxın maşının yandırıldığı Qaraçuxur qəsəbəsindəki vəhhabilərin çoxluq təşkil etdiyi binadan başlayıb. Bundan 1 gün sonra Sumqayıtdakı yenə də vəhhabilərin çoxluq təşkil etdiyi binadan başlamaqla poliuretan üzlüklər sökülməyə başlayıb. Sökülmə əməliyyatının hər iki halda yanğın baş verdiyi ərazidən 50 kilometr aralıdan başlanması təsadüfi olub? Yanan binanın həndəvərində poliuretanla üzlənmiş binaları görməzdən gəlinməsi niyə xidmət edib?

Nəhayət, poliuretanın tezalışan olması haqda istintaqın versiyası doğrudurmu?

Bu suala cavab vermək üçün apardığımız araşdırmalar çox maraqlı bir detal üzə çıxardı. 2015-ci il aprelin 10-da Xətai rayonu ərazisində yaşayış binasında "THN" şirkətinin poliuretanla üzlədiyi binadakı yanğından sonra Fövqəladə Hallar Nazirliyində geniş tərkibli iclas keçirilib. İclasa FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəisi Cəbrayıl Xanlarov başçılıq edib. İclasda yeganə müzakirə olunan mövzu Azərbaycanda binaların üzlənməsində istifadə olunan poliuretanın tezalışan olub-olmaması olub. Araşdırmalar zamanı məlum olub ki, digər tikinti şirkətlərinin, "THN"in istifadə etdiyi poliuretan daha aşağı keyfiyyətli və odadavamlılığı daha azdır. Respublikaya keyfiyyətli "poliuretan" idxal edən bu gün rəsmilərin üzərində məhkəmə qurulan "Global-Stone"dir. Hətta həmin iclasda "THN" şirkəti rəsmilərinə xüsusi olaraq tapşırılıb ki, binaların üzlənməsində istifadə etdiyi poliuretanı məhz "Global-Stone"də qəlibləsin.

Belə bir halda poliuretanın tezalışan olmasının ittihamın əsasını təşkil etməsi nə dərəcədə doğrudur?

Araşdırmalarımız davam edir.

❑ E.MƏMMƏDƏLİYEV



# Türk əsgəri - bizim əsgər!

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Türk əsgəri ilə sadə vətəndaşın münasibəti məni hər zaman heyran edib. Hətta Mustafa Kamal Atatürkün Anıt qəbrini ziyarət zamanı kiçik bir türk çocuğunun qarovulda dayanan, "lay divar"a bənzəyən əsgərin düz çəkmələrinin yanında oturub xoşbəxtcəsinə gülümsəməsinə uzun-uzadı tamaşa eləmişdim. Daha sonra qarovul dəstəsinin dəyişdirilməsi mərasimindən zövq almışdım.**

Türk ordusunun böyüklüyü, sarsılmazlığı, məğlubedilməzliyi vardı hər bir əsgərin üzündə, səsində. Biz türk əsgərini bu sayaq görmüşdük.

15 iyul gecəsi və ondan sonra yaşananlar isə düşüncələrimizi alt-üst etdi. Biz türk əsgərini bu biçimdə görmək istəməzdik. Əslində baş verənləri tam olaraq Türkiyə ordusunun adına yazmaq da olmaz. Lakin bu qorxunc ssenarinin arxasında dayananlar ordunu özlərinin çirkli oyunlarına qatmağı, türk əsgərini üz-üzə qoymağı bacardılar, ordudan türklər demiş, "kullandılar".

Biz türk əsgəri deyəndə gözümüzün qarşısına on minlərin şəhid olduğu Çanaqqala savaşı gəlir. Türk əsgərindən söz düşəndə Sarıqamışda donan 90 min əsgər və zabiti sayğı ilə xatırlayırıq.

Azərbaycandakı Türk şəhidlikləri ziyarətgahımızdır. Türk əsgəri həm də bizim əsgərdir, bunu düşmən də bilir. Hətta aprel döyüşlərindən sonra ermənilər həyəcanlı Qarabağda döyüşənlərin türk əsgəri, "bozqurdlar" olduğunu iddia etmişdilər.

Baş verənlər təkcə Türkiyənin deyil, Azərbaycanın da təhlükəsizliyini təhdid edir. Türkiyəni parçalamağın, süquta yetirməyin yeganə yolu qalmışdı: ordunu parçalamaq. Ona da əl atdılar. Azərbaycandakı narahatlıq təbiidir. Çünki Türkiyə ordusuna uzanan xain əllər həm də Azərbaycan ordusuna uzanır. Azərbaycanın hava sərhədlərinə müdaxilə olanda türk şahinləri səmamızı bayraqlarımızın rənginə bürünmüş, ... edən uçuşlar həyata keçirməklə dost-düşmənə mesaj vermişdilər.

Fotolar, videokadrlarda qiyamçı türk əsgərlərinin aşağılanması, onlara işgəncə verilməsi səhnələri yer alıb. Utandırıcıdır! Cinayətləri olsa belə, son sözü hüquqi dövlət olan Türkiyənin qanunları deməlidir, əlində külüng daşıyan, hansı məqsədə xidmət etdiyi bəlli olmayan şəxslər yox. Dünyaya Türkiyəni bu biçimdə göstərmək olmaz! Bu, İŞİD-in metodudur, Türkiyə vətəndaşına yaraşmaz!

Ötən illərin təcrübəsi sübut etdi ki, Türkiyə güclü olarsa, Azərbaycanın da gücü artacaq, düşmən qarşısında yenilməyəcək. Ona görə də zaman-zaman Azərbaycanla Türkiyənin arasını vurmağa, ədavət toxumu səpməyə çalışanlar olur. Tarix boyu...

1918-ci ildə ingilislər Bakıya gələndə tələbərindən birincisi bu olmuşdu ki, Azərbaycan Demokratik Respublikasının bayrağı dəyişdirilməlidir, çünki Türkiyə bayrağına bənzəyir. Bizim hətta bənzərliklərimizi də qəbul etmirlər, nəinki qardaşlığımızı.

Ermənilər 15 iyul gecəsi şübhəsiz ki, sevinirdilər - Türkiyənin Suriyaya çevriləcəyini zənn edərək. Bu günü çoxdan gözləyirlər. Təkcə ona görə yox ki, Türkiyədən Andronikin qulağının kəsilməsinin, Nuru Paşanın əsgərlərinin Azərbaycanı daşnaklardan xilas etməsinin qisasını almaq istəyirlər. Həm də ona görə ki, işğalçı Türkiyənin zəif düşməsi halında Azərbaycan ərazilərini Rusiyanın himayəsi ilə əbədi qəsb edəcəyinə çox əmindirlər. Ötən əsrin əvvəllərində də Türkiyə zəif salınandan sonra Azərbaycan torpağından Ermənistana növbəti pay ayrıldı.

Ermənilər həm də konstitusiyada Ağrı dağı ilə bağlı iddianı məntiqi sonluğa çatdırmaq istəyirlər. Yoxsa Türkiyəyə qarşı xəyanətlərini davam etdirən PKK-ya erməni sevgisi hardan idi? (Yaxşı ki, bu arada Ermənistanda da vəziyyət dəyişib, başları özlərinə qarışıb). PKK da marıta yatıb Ankara və İstanbuldakı hadisələri maraqla izləyirdi. Şükür ki, türk düşmənlərinin sevinci uzun sürmədi. Amma qan töküldü. Onsuz da son illərdə Türkiyə çox şəhidlər verirkən qardaş qanının axıdılması yolverilməzdir!

Türk dünyasının böyük sərkərdəsi Qazi Mustafa Kamal Atatürk zamanında "Hər bir türk əsgəri bir orduya bərabərdir" deyirdi. Türkiyə son hadisələrdə xeyli əsgərini, generalını itirdi. PKK ilə mübarizədə şəhid olmuş hərbçinin ay-ulduzlu bayrağa bürünmüş tabutu önündə mətin addımlayan türk çocuğu ilə 15 iyul darbəsində iştirakçı olmuş əsgərin, ya zabitin doğmasını müqayisə edin. İkinci mənzərə daha çox ağrılıdır: "Təki Vətən sağ olsun" deyib də əbədiyyətə qovuşanlar və çirkli oyunlara bilərəkdən, ya bilməyərəkdən qoşulmuş türk hərbçilər... Biri düşmən güllənsinə tuş gəlmişdisə, digəri elə öz qan qardaşının hədəfinə tuş oldu.

Çox təəssüf. Kaş ki, bunlar yaşanmazdı...

---

# "Türkiyədə baş verənlər 1993-cü il iyun hadisələrindən çox fərqlidir"

## Mirmahmud Mirəlioğlu: "Azərbaycanda dövlətçilik psixologiyası çox zəifdir"

**Türkiyədə müxalifət hərbi çevrilişə cəhdi pislədi. Belə ki, məsələ ilə bağlı Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıçdaroğlu Türkiyənin bu cür çevrilişləri çox gördüyünü və yenidən belə halları yaşamaq istəmədiklərini bildirib.**

MHP sədri Dövlət Baxçalı da hakimiyyətin yanında olduqları barədə açıqlama verdi. Buna görə prezident Rəcəb Tayyib Ərdoğan hər iki liderə telefon açaraq onlara təşəkkür edib.

Bir çox ekspertlər də çevrilişin baş tutmamasının səbəbləri sırasında bu faktoru xüsusi vurğulayıb, "müxalifət dəstəkləməzsə, hərbi çevriliş baş tutmaz" deyirlər. Lakin 1993-cü ilin iyun hadisələrində Azərbaycanda bunun əksi müşahidə olundu. O zaman ana müxalifət funksiyasını daşıyan AMİP legitim hakimiyyətə qarşı hərbi qiyam qaldıranları dəstəkləmişdi.

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan KXCP sədri Mirmahmud Mirəlioğlu bildirdi ki, Türkiyədə müxalifətin yanaşması onların daxili işləridir: "Əgər bunu doğru saydılarsa, biz də sadəcə, olaraq təqdir etməliyik. Burada çox qəribə incəliklər var. Eyni zamanda xeyli maraqlı məqamlar var. Azərbaycanda və dünyada da heç kimə sirr deyil ki, bu, birmənalı şəkildə qiyam deyil. Hər halda baş verənlər Türkiyə iqtidarı və müxalifətinin öz daxili işləridir. Nəyi necə etmələrini özləri bilərlər. Buna qatılma haqqımız yoxdur".



1993-cü ilin iyun hadisələrinə gəlincə isə M. Mirəlioğlu dedi ki, həmin zaman Azərbaycanda baş verənləri, 15 iyulda Türkiyədə yaşananlarla müqayisə etmək olmaz: "Ümumiyyətlə, 1993-cü ilin iyun hadisələri ilə bağlı bizim geniş açıqlamalarımız olub. Yaxın zamanlarda da bu məsələlər böyük diskussiyaya səbəb olub. Azərbaycanda hadisələr də, insanlar da fərqlidirlər. Həmçinin, dövlətə, dövlətçiliyə münasibətlər yenə qeyd etdiyim kimi, eyni deyil. Məsələlərə baxış həddindən artıq çox fərqlidir. Ona görə ki, Azərbaycanda dövlətçilik anlayışı hər kəs üçün eyni deyil. Bayrağa, millətə, dövlətə münasibət başqadır. Bu, hələ bizdə formalaşmayıb. Azərbaycanda dövlətçilik psixologiyası çox zəifdir. Doğrudur, bu, ayrı-ayrı fərdlərdə var, ancaq təəssüflər olsun ki, dövlətçilik psixologiyası cəmiyyətdə hakim deyil. Ona görə də Türkiyədə baş verənlərlə 1993-cü ilin yox, 1994-cü ilin oktyabrını, 1995-ci ilin martını müqayisə etmək olar. Oradakı cəmiyyət həddindən artıq fərqlidir".

❑ Əli RAİS

---

# Büdcə gəlirləri azalır, xərclər artır...

## Ekspertlərə görə, qeyri-neft sektorundan daxilolmaların artmayacağı şəraitdə, büdcədə ilin sonuna yaxın gərginlik yarana bilər...

**Azərbaycanda Ümumi Daxili Məhsulun (ÜDM) həcmi 2016-cı ilin ilk 6 ayı ərzində 3,4 faiz azalıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat dövründə ÜDM-in həcmi 17,27 milyard təşkil edib. Yanvar-iyun aylarında qeyri-neft sektorunda tənəzzülün daha güclü olması sayəsində, ÜDM-də neft sektorunun payı daha 2,1 faiz artıb.**

2016-cı ilin ilk 6 ayı ərzində ÜDM-də müxtəlif sektorların payı aşağıdakı kimi olub: sənaye- 38,5 faiz, nəqliyyat vasitələrinin ticarəti və təmiri- 11,8 faiz, tikinti sektoru- 9,1 faiz, nəqliyyat- 6,8 faiz, kənd, meşə və balıq təsərrüfatları- 5,1 faiz, turizm və ictimai iaşə- 2,8 faiz, informasiya və rabitə- 2 faiz, digərləri- 16,3 faiz. ÜDM-də vergilərin payı cəmi 7,6 faiz olub. ÜDM-də adambaşına düşən payın həcmi 1800 dollar təşkil edib (azalma 4,5 faiz).

Bundan əvvəl Azərbaycanın neft və qaz gəlirlərinin kəskin azalması haqqında rəsmi statistika açıqlanmışdı. Neftin qiymətinin ucuzlaşması müqabilində, 2016-cı ilin ilk 4 ayı ərzində neft ixracatından əldə edilən gəlir 2,846 milyard dollar təşkil edib ki, bu məbləğ ötən ilin analoji dövrü ilə müqayisədə 34,7 faiz azır. Eyni mənzərə Azərbaycandan təbii qaz ixracında da qeydə alınıb. 2016-cı ilin yanvar-aprel ayları ərzində



Qubad İbadoğlu



Azər Mehdiyev

Azərbaycandan 2,97 milyard kubmetr təbii qaz ixrac edilib. Bu rəqəm ötən ilin analoji göstəricisindən 4,7 faiz azdır. Təbii qaz icracından əldə edilən gəlir bu müddət ərzində 549,2 milyon dollar təşkil edib. Bu isə ötən ilin analoji dövrü ilə müqayisədə 25,5 faiz azdır.

İqtisadçı alim Qubad İbadoğlunun sözlərinə görə, son iki ayda büdcə gəlirləri kəskin azalıb, xərcləri isə sürətlə artıb: "İlin ilk yarısında dövlət büdcəsində neft gəlirlərinin payı 68,1 faiz olub. Bu ilin son 2 ayına olan büdcə gəlirləri göstəriciləri ciddi narahatlılıq doğurur. Belə ki, bu ilin may ayında dövlət büdcəsinə 740,3 milyon manat, iyun ayında isə 680 milyon manat vəsait toplanıb. Bu isə müvafiq olaraq son 6 aya olan orta aylıq göstəricidən 33,5 faiz və 27,6 faiz azdır. Məlumat üçün qeyd edim ki, dövlət büdcəsinə yanvar ayında 1 milyard 350 milyon, fevral ayında isə 1 milyard 33 milyon manat vəsait toplanmışdı. Qeyd edim ki, bu il Dövlət Neft Fondundan dövlət büdcəsinə transferin məbləği 7 milyard 615 milyon manat və ya ayda orta hesabla 634,5 milyon manat proqnozlaşdırılıb. Bu isə o deməkdir proporsional olaraq bu ilin ilk yarısında dövlət büdcəsinə yığılan vəsaitin 62,1 faizini birbaşa Neft Fondundan transferləri təşkil edir. Bundan başqa, il ərzində dövlət büdcəsinə xarici neft şirkətlərindən vergi daxilolmaları 370 milyon manat proqnozlaşdırılıb, elə təxminən bu qədər də vəsaitin Dövlət Neft Şirkətindən daxil olması gözlənilir. Belə olan halda ilin ilk 6 ayında dövlət büdcəsinin gəlirlərində neft bölməsindən daxilolmaların payı 68 faizdən çox olur. Göründüyü kimi, cari ilin dövlət büdcəsi hələ də neft gəlirlərindən asılı olaraq formalaşır. Odur ki, bu ilin ikinci yarısında büdcənin vəziyyəti və eyni zamanda bununla da xarici faktorlardan asılı olacaq. Hətta neft gəlirlərinin artması paralel olaraq Dövlət Neft Fondundan transferləri çoxalda bilər. Bu isə büdcə gəlirlərin il ərzində 70 faizindən çoxunun bu mənbədən formalaşmasını şərtləndirə bilər".

Ekspertin sözlərinə görə, rəsmi statistik məlumatlar göstərir ki, dövlət büdcəsinə 6 ayda yığılan 6 133,8 milyon manatın yarısı son 2 ayda - may və iyun aylarında xərclənib: "Son 2 ayda büdcə xərcləmələrinin kəskin artmasında "Formula 1" Avropa Qran Pri yarışlarının da rolunun olması da şübhə doğurur. Əvvəlki illərin praktikasından görünür ki, ilin ikinci yarısında, xüsusilə də noyabr-dekabr aylarında büdcə xərcləmələri çoxalır. Bu gedişlə qeyri-neft sektorundan daxilolmaların artmayacağı şəraitdə büdcədə ilin sonuna yaxın gərginlik yaranacağını ehtimal oluna bilər".

Ekspert Azər Mehdiyev isə basta.info-ya bildirib ki, ÜDM-in tərkibi xərclər üzrə ev təsərrüfatlarının xərcləri, dövlət xərcləmələri, investisiyalar və xarici ticarət saldosundan ibarətdir: "Bütün müşahidələr göstərir ki, ötən ildən bəri bütün bu elementlər üzrə azalma gedir. Əvvəllər Statistika Komitəsinin açıqlamasında ÜDM deflyatoru da təqdim olunurdu ki, bu deflyator nominal ÜDM-lə real ÜDM-in fərqini görməyə imkan verirdi. Hazırda Statkom bu məlumatı açıqlamır, buna görə də qiymətləndirmə aparmaq çətindir. Təəssüf ki, ölkədə ÜDM-in və başqa iqtisadi göstəricilərin alternativ hesablamaları yoxdur ki, təqdim olunan informasiyaların dəqiqlik dərəcəsi müqayisə olunsun. Hər halda müşahidələr ölkədə iqtisadi fəallığın kəskin aşağı düşdüyünü söyləməyə əsas verir".

❑ RÖYA

YENİ MÜSAVAT
N 154 (6475) 18 iyul 2016

# "İndiki şəraitdə başqa çıxış yolu görmürəm"

## Vahid Əhmədov: "Çox təəssüf ki, ötən illərdə hökumət ciddi addımlar atmadı"

**"Baxış bucağı"**

**Ötən həftənin sonlarında qardaş Türkiyədə yaşananlar Azərbaycanda da narahatlıqla izlənildi və təbii olaraq əsas müzakirə mövzusuna çevrildi. Milli Məclisin deputatı Vahid Əhmədovla söhbətimizə də əvvəlcə Türkiyədə yaşananlar, baş verənlərin Azərbaycana təsirlərindən danlışdıq.**

***- Vahid bəy, Türkiyə ilə Azərbaycanı bağlayan əlaqələr kifayət qədərdir və yəqin ki, qardaş ölkədə yaşananlar sizi də narahat edir. Baş verən qanlı hadisələr barədə nə deyə bilərsiniz?***

- Türkiyədə baş verən hadisələr Azərbaycanda da çox böyük narahatlığa səbəb oldu. Çünki faktiki olaraq Azərbaycanı bütün dünyada müdafiə edən, arxamızda duran, beynəlxalq təşkilatlarda Azərbaycanın səsinə səs verən dövlət Türkiyədir. Ona görə də biz həmişə istəmişik ki, Türkiyə dövləti həm güclü olsun, həm stabillik hökm sürsün və heç bir problem yaranmasın. Mən hadisənin səhəri günü Türkiyənin Azərbaycandakı səfiri ilə danışdım, narahatlığımızı, bir yerdə olduğumuzu bəyan etdim. Baş verənlər bir daha onu göstərdi ki, Türkiyənin özündə də müəyyən problemlər var. Bu proseslərdə müəyyən daxili və xarici qüvvələrin əlinin olması da istisna deyil. Ona görə qardaş ölkədə baş verənlər əlbəttə ki, bizi ciddi şəkildə narahat edir. Türkiyə demokratik dövlətdir, azad cəmiyyət var. Fikir verdinizsə, bu hadisələrdə də türk xalqı öz sözünü dedi. Baxmayaraq ki, müəyyən qüvvələr dövlət çevrilişi etməyə cəhd göstərdilər, amma bunun qarşısını xalq aldı. Yəni xalq küçələrə, meydanlara, tankların qabağına çıxdı və dövlət çevrilişinə imkan vermədi. Baş verənlər Türkiyənin demokratik dövlət olduğunu bir daha göstərdi. Müxalif partiyalar da bu proseslərdə dövlətin yanında olduqlarını, demokratiyanı müdafiə etdiklərini, Türkiyənin demokratik dövlət kimi yaşaması naminə mübarizəyə həmişə hazır olduqlarını bir daha bəyan etdilər. Türkiyə oturuşmuş, dünyada öz sözünü deyən, inkişaf etmiş bir dövlətdir. Ola bilər iqtidarın siyasəti kimlərisə qane etməsin. Amma bütün bunlar Türkiyədə dövlət çevrilişi etməyə əsas vermir. Son zamanlar cənab Ərdoğanın apardığı siyasət, Suriya ətrafında baş verən hadisələr, son on gün ərzində Rusiya ilə münasibətlərin istiləşməsi ola bilər ki, bir sıra xarici qüvvələrin, dövlətlərin maraq dairəsində olmadığı üçün bu hadisələr baş verdi. Tarix boyu türk ordusu Türkiyənin ayaqda qalmasının qarantı olub. Hətta Türkiyə tarixində ordu dövlət çevrilişləri həyata keçirsə də, ardınca ölkədə islahatlar həyata keçirilib, həyat öz axarına qayıdıb. Əminəm ki, bu məsələlər yoluna qoyulacaq. Əlbəttə, Türkiyənin imicinə böyük zərər dəydi, iqtisadi cəhətdən xeyli maneələr ortaya çıxacaq. Ola bilər bu hadisələr Türkiyənin milli valyutasına da təsir göstərsin, iqtisadiyyatına problemlər yaratsın. Amma Türkiyə böyük dövlətdir, bu hadisələrdən də ayaq üstə çıxacaq. Çox yaxşı ki, Türkiyə daha böyük fəlakətlərlə üz-üzə qalmadı.

***- Bu hadisələrdən sonrakı Türkiyəni necə təsəvvür edirsiniz?***

- Türkiyə dövlətinin rəhbərliyi, yəqin ki, aparılan siyasətlə əlaqədar olaraq müəyyən nəticələr çıxaracaqlar, ölkədəki problemlərlə əlaqədar ciddi düşünəcəklər. Bu hadisələrlə əlaqədar müəyyən versiyalar irəli sürülür. Yəqin ki, istintaqın yekununda məsələlər aydın olacaq. Əlbəttə, Türkiyədə yaşananlar ürəkaçan deyil. Amma son nəticədə dövlət çevrilişinin qarşısının alınması müsbət nəticədir.

***- Türkiyədə baş verənlər tarix boyu Azərbaycanda da izini qoyub, bizə təsirini göstərib. Bu mənada son baş verənlərin Azərbaycana təsirləri hara qədər ola bilər?***

- Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələr çox yüksəkdir. Azərbaycan vətəndaşları, iş adamları Türkiyədə, Türkiyənin vətəndaşları da Azərbaycanda çalışır. Heydər Əliyev demişkən, "biz bir millət, iki dövlətik" və aramızda da hər hansı problem yoxdur, dövlət başçılarının da münasibəti çox yüksək səviyyədədir. Həmçinin iqtisadi məsələlərlə əlaqədar yüksək səviyyəli müzakirələr aparılır, Strateji Əməkdaşlıq Şurasının vaxtaşırı toplanmır. Amma Türkiyədə olan indiki vəziyyət, müəyyən iqtisadi problemlərin ortaya çıxması təbii ki, bizim üçün yaxşı heç nə vəd etmir. Bu mənada iqtisadi əlaqələrimizə müəyyən problemlər yarana bilər. Amma mən inanıram ki, türk xalqının qurduğu oturuşmuş, güclü Türkiyə dövləti bütün mövcud problemləri aradan qaldıracaq.

***- Rusiya ilə yaşanan yarımillik gərginliklər qardaş ölkənin iqtisadiyyatına, vətəndaşların sosial vəziyyətinə də kifayət qədər təsir göstərmişdi. Bu mənada dövlət çevrilişi üçün məhz indiki ərəfənin seçilməsi də təsadüf olmaya bilər. Neftin qiymətinin düşməsindən sonra sosial-iqtisadi vəziyyətində çətinliklər yaranan Azərbaycanda analoji hadisələrin baş verməsi mümkündürmü?***

- Azərbaycanın ən böyük üstünlüyü budur ki, burada stabillik var. Dövlət başçımızın apardığı siyasətin özəlliyi də bundan ibarətdir ki, Azərbaycandakı stabilliyi qoruyub-saxlamaq lazımdır. Düzdür, müəyyən problemlər olub, xaricdən dini radikalizmə meylli qüvvələr, digər dairələr istəyirlər ki, ölkəmizdə problemlərə yaransın, stabillik pozulsun. Amma belə hesab edirəm ki, dövlət təhlükəsizlik orqanları hər zaman bunun qarşısını almağa qadirdir. İqtisadi cəhətdən müəyyən problemlərin yaranmasına gəldikdə, əlbəttə, bu dəqiqə dünyanın bir çox ölkələrində, xüsusilə də neft ixracatçılarında həddən artıq iqtisadi problemlər yaşanır. MDB ölkələrində neft dəyərdən düşüb, Azərbaycan da istisna deyil. Şübhəsiz ki, Türkiyədə baş verənlər bu ölkə ilə iqtisadi-siyasi, xüsusilə ticarət əlaqələri olan ölkələrə, o cümlədən Azərbaycana öz təsirini göstərəcək. Biz Türkiyə vasitəsilə neft-qaz və digər məhsullar ixrac edirik. Amma çalışmaq lazımdır ki, hadisələrin Azərbaycana təsiri minimuma ensin.

***-Vahid bəy, ötən həftə Azərbaycanda elektrik enerjisindəki qiymət artımı narazılıqla qarşılandı. Tarif Şurası niyə həssas bir məqamda əhalinin etirazına səbəb olan bir addıma getdi?***

-Bunun həm obyektiv, həm də subyektiv səbəbləri var. Neftin qiymətinin kəskin aşağı düşməsi, manatın iki dəfə devalvasiyaya uğraması, digər problemlər hökuməti bu addımı atmağa məcbur etdi. Fikir verdinizsə, xüsusən son zamanlar ölkədə müəyyən qədər manat qıtlığı yarandı. Bank sisteminin sağlamlaşdırılması ilə əlaqədar Nəzarət Palatası müəyyən diaqnostika həyata keçirir, bu iş hələ axıra çatdırılmayıb, bank sistemində çox ciddi problemlər var və s. Ona görə də bütün bunları nəzərə alaraq, xüsusilə manat qıtlığını aradan qaldırmaq üçün elektrik enerjisinin qiymətini müəyyən qədər artırdılar. Mən bir dəfə də mətbuata demişəm, 2004-cü ildə "Gülüstan" sarayında regionların iqtisadi inkişafı ilə bağlı konfransda cənab prezident hökumətin qarşısında iki məsələni həll etmək tapşırığını qoymuşdu: ərzaq təhlükəsizliyinin təmin edilməsi və qeyri-neft sektorunun inkişafı. Artıq 12 il keçib. Ötən 12 il ərzində çox şey etmək olardı. Qeyri-neft sektorunu elə bir səviyyəyə gətirib çatdırmaq olardı ki, biz heç elektrik enerjisindəki qiymət artımına fikir verməzdik. Yəni qeyri-neft sektoru normal inkişaf etsəydi, dövlət büdcəsinə normal vəsaitlər daxil olsaydı, neftin hasilatı və qiyməti ensə də, bu, bizə elə də təsir etməzdi. Amma çox təəssüf ki, ötən illərdə hökumət ciddi addımlar atmadı. Yalnız son illərdə xüsusilə dövlət başçısının səyi nəticəsində, onun rəhbərliyi altında kənd təsərrüfatında müəyyən irəliləyişlər yarandı, ixracat 3-4 dəfə artdı, Azərbaycana müəyyən vəsaitlər daxil oldu. Yəni hökumət vəziyyəti nəzərə alaraq işığın qiyməti ilə əlaqədar bu addımı atdı. Amma atmaya da bilərdi. Çünki elektrik enerjisinin qiymətinin qaldırılması bütün məhsulların qiymətinə təsir edəcək.

***- Əgər ciddi zərurət yox idisə, 12 il ərzində üzərinə düşən vəzifələri yerinə yetirməyən hökumət niyə əhalini hakimiyyətdən narazı salan addıma getdi?***

- Burada əhalini narazı salmaqdan söhbət getmir. Hökumətdəkilər çıxış yolu axtarırlar ki, hansı addımı atsalar, büdcəyə əlavə vəsait gələr və s. Mən indiki şəraitdə başqa çıxış yolu görmürəm. Çünki vaxtında bu işlər görülsəydi, tədbirlər həyata keçirilsəydi, indiki şərait yaranmazdı. Mən demişəm, bu dəqiqə bütün dünyada alternativ enerjidən istifadə edilir. Sumqayıtda günəş batareyaları istehsal edən böyük bir zavod tikilib. Azərbaycanda çox sayda hündürmərtəbəli binalar tikirlər. Niyə o binalarda həmin günəş batareyalarından istifadə etmirlər? Həmin batareyalar xaricə satılır, amma Azərbaycanda çox az səviyyədə istifadə olunur. Hökumət külək, günəş, su enerjisi ilə bağlı məsələlərə baxmalıdır. Çox təəssüflər, proqram olsa da, mən bunun həyata keçirilməsini görmürəm. Yenə də deyirəm, hökumət işığın qiymətinin artırılmasına getməyə də bilərdi. Çünki bu, həm qiymət artımına səbəb olacaq, həm də aztəminatlı ailələri, pensiyaçıların büdcəsinə ziyan dəyəcək. Əlavə problemlərin yaranmaması üçün müəyyən işləri vaxtında həyata keçirmək lazımdır ki, sonra gecikməyək.

***- Ölkə başçısı bu yaxınlarda torpaqları mənimsəyən məmurlara da xəbərdarlıq etdi. Bundan əvvəl villalarla bağlı analoji xəbərdarlıq olmuşdu və bir neçə sahibsiz mülk dağıdılmışdı. Bu xəbərdarlığın ardınca hansı addımları gözləyirsiniz?***

- Torpaqların mənimsənilməsi məsələsi daim gündəlikdə olub, Milli Məclisdə də bununla bağlı müzakirələr aparılıb. Torpaqların özəlləşdirilməsi zamanı kimin imkanı var idi- xüsusilə də məmurlar - külli miqdarda torpağa sahib oldular. 200, 300, 500 hektar torpağa sahib olan insanlar var. Məndə məlumatlar var ki, Qubada 200-300 hektar torpaq alan şəxslər var, ancaq o torpaqlar istifadə olunmur. Özü də zəbt olunan təkcə əkinə yararlı ərazilər deyil. Yaylaqlar var ki, illərdir zəbt olunub. Bu gün rayonlarda fermer təsərrüfatları var, amma onlar heyvanlarını otarmağa yaylaq tapa bilmir. Çünki yaylaqlar müəyyən şəxslər arasında bölüşdürülüb, oraya çıxmaq mümkün deyil. Bunlar da hamısı kənd təsərrüfatı torpaqlarıdır. Ona görə də bu, çox ciddi məsələdir. Qeyri-neft sektorunda əsas sahələrdən biri kənd təsərrüfatıdır. Çünki işlək əhalinin hardasa 38 faizi kənd təsərrüfatında işləyir. Odur ki, bu sahəyə diqqət artırılır. Məncə, bu prosesi axıra çatdırmaq lazımdır. Mən hətta "Yeni Müsavat"da demişdim ki, məmurların siyahısını vermək lazımdır. Qoy hansı məmurun nə qədər torpaq sahəsini zəbt etdiyini xalq bilsin.

***- Ötən günlərdə hansısa məmurun zəbt etdiyi torpaq sahəsini geri qaytardığını eşitmisinizmi?***

- Yox, hələlik elə bir şey eşitməmişəm. Amma cənab prezident dedi ki, onda siyahı var. Yəqin ki, o siyahı ilə əlaqədar müəyyən göstərişlər verilib. Dövlət Əmlak Komitəsi, digər təşkilatlar yəqin ki, bununla bağlı tədbir görəcəklər. Çünki bizim başqa çıxış yolumuz yoxdur. Əgər biz qısa müddətdə Azərbaycanda kənd təsərrüfatını inkişaf etdirmək, prezidentin dediyi kimi, ərzaq təhlükəsizliyini təmin etmək istəyiriksə, ya bu torpaqlar əkilib-becərilməlidir, ya da dövlətə qaytarılmalıdır ki, dövlət ondan istifadə etsin. Deyək ki, torpağı almısan, dəxli yoxdur necə, ya neçəyə almısan, heç olmasa ondan istifadə et! Məmur olmayan, amma torpaq sahəsinə sahib olmuş digər insanlar da var, əkib-becərə bilmir, torpağı satmaq istəyir. Amma kimdir o qiymətə torpaq alan? Bunun yeganə yolu torpağı dövlətə qaytarmaqdır ki, dövlət ondan səmərəli istifadə etsin.

**❑ Elşad PAŞASOY**



**"Türkiyə dövlətinin rəhbərliyi, yəqin ki, aparılan siyasətlə əlaqədar olaraq müəyyən nəticələr çıxaracaq, ölkədəki problemlər haqda ciddi düşünəcək"**



# Biz bu filmə baxmışıq

Zamin HACI
zaminhaci@gmail.com

**Doğrudan da "bir millət, iki dövlət"dir. Yoxsa başqa yerlərdə qarışıqlıq, həyata təhlükə olanda insanları ölümdən qorumaq üçün evdə oturmağa çağırırlar, Türkiyə və Azərbaycanda isə küçələrə çıxmağa. Bunu "xalqın seçdiyi hakimiyyəti qorumaq haqqı" adlandırmaq demaqoqiyadır. Xalqın seçdiyi hakimiyyət bütün xalqın hakimiyyəti olur. Səs çoxluğundan istifadə edib əleyhinə səs verənləri əzmir. Qışqır-bağır, pafos, saxtakarlıq korrupsiyanın aşkar əlamətləridir. Məşhur aforizmdə deyilən kimi: "Harda patriotizmdən, vətəni, dövləti qorumaqdan çox danışırlarsa deməli orda oğurlayırlar".**

Başqa bir aforizm də durumu dəqiq ifadə edir: "İstənilən hakimiyyət insanı korlayır, əxlaqını pozur, mütləq hakimiyyət isə mütləq pozur" (19-cü yüzil ingilis siyasətçisi və tarixçisi lord Con Akton demişdir). Yəni bu gün Türkiyəni idarə edən adam hardasa 10 il qabaq bəlkə daha normal keyfiyyətlər daşıyırdı. Dəyişmədilərsə, türk xalqında buna siyasi, elektoral güc tapılmadısa deməli durum xarabdır.

Şəxsən mən son günlər əvvəlki kimi ürəklə "Türkiyəmiz" yaza bilmirəm. Artıq oranı öz dövlətim saymağım çətinləşib. Əslində Azərbaycan və Türkiyə rəhbərlərinin saxta mehribançılığı da bunda ciddi rol oynayıb. Həmin münasibətlər üzündən biri o birinə acaib viza tətbiq edib, o biri isə azərbaycanlıya göstərmədiyi hörməti suriyalı ərəb qaçqınlara göstərib "istəsələr 3 milyonuna vətəndaşlıq verərik" deyib.

Uzun illər Türkiyədə demokratiyanın qarantı kimi Qərb yönümlü ordu görülürdü. Hərbi çevriliş edəndə də nisbətən qansız edir, sonra hakimiyyəti sivil, mülki vətəndaşa verirdilər. Latın Amerikasında, Afrikada generalların qurduğu uzunmüddətli hərbi xunta rejimləri Türkiyədə demək olar yaşanmayıb. Ancaq indi ordu-xalq, ordu-partiyalar münasibətləri tam zədə alıb. Ortada düşmənçilik, nifrət, qana çağırış şiddətlənib. Dialoq məhv edilib, ölkə bir "uzun adamın" nifrət dolu monoloqlarına meydan ediləndə başqa nəticə gözlənmirdi.

Deyirlər xalq Ərdoğanı dəstəklədi, meydanlara axışdı. Bəs o zaman çevriliş cəhdini edənlər, ardından tutulan minlərlə adam kimdir? Adiləşən terroru İŞİD-in boynuna yaz. "Ərgənəkon", "Balyoz" davalarında tutduğun və işgəncə verdiyin türk zabit elitasını fətullahçılara yüklə. Lap deyək bu qiyamı da Yunanıstan təşkil eləyib, axı qiyamçıların helikopteri o tərəfə uçmuşdu! Əladır. Əsl xarici qara qüvvələrin, dövlətçiliyin sarsılmasını istəyən mason-soros-çu-amerikanların-filanın işləridir. Ancaq bəs onda sən kimsən? Siyasətin "ayfon" ekranından timsah göz yaşları axıtmaqdır?

Xalqın əmin-amanlığını qorumaq seçilmiş hakimiyyətin bir nömrəli vəzifəsidir. Ancaq hərbi polis və ordu paytaxta hücuma keçirsə, belə dövlətin adı nədir? Orta Doğunun yeni Suriyası. Liviya. İraq. Siz Azərbaycanın Liviya ilə "Bir millət, iki dövlət" adlanmasını, adının yanaşı çəkilməsini istərdinizmi? Mən istəməzdim. Baxmayaraq bayrağımız da az qala eynidir. Liviya dinarını çəkən rəssam isə böyük ehtimal manatı çəkən rəssam olub - o dərəcə qarışıq salmaq olar.

Yeri gəlmişkən, Türkiyə ilə bağlı bir mif də Liviya mifinin təkrarıdır. Guya iqtisadi inkişaf var. Guya camaat krantı açanda süd gəlir. Ancaq Amerikanın-zadın bunu gözü götürmür. Bu lotular yaddan çıxarır ki, Amerika Liviya məsələsinə ümumiyyətlə uzun müddət qarışmadı. Liviyalı üsyançılar aylarla yalvarırdı ki, gəlin bizi Qəddafinin əlindən alın. O zaman bu lotular Qərbi duruma qəsdən qarışmamaqda suçlayırdılar. Maraqlı mənzərədir, eləmi? Amma dezinformasiya savaşı mühitində, KİV-lərə qoyulan saysız qadağa və senzura şəraitində bunu hansı kütləyə izah edəcəksən? Adamların həqiqəti özlərinin tapıb müəyyən etməsi üçün azı 3-4 azad, müstəqil, nüfuzlu informasiya mənbəyinə çıxış imkanları olmalıdır. Nə Türkiyədə, nə Azərbaycanda bu qalmayıb. O üzdən, bədbəxt çevrilişçilər "AzTV"-nin yerli variantına - TRT kanalına əl bulamışdılar. Çünki çaşmışdılar, bilmirdilər başqasını tutmağın hansısa mənası varmı.

Bizdə bu temada köhnə bir anekdot var. Oğrular bankı yarırlar, birdən böyürdən jurnalist çıxır, kamera ilə çəkir. Oğrunun biri maskasını çıxarıb gülə-gülə kameraya əl yelləyir. O biri oğru deyir, adə, sən neyrinsən, üzünü gördülər. Maskasını açan deyir: "Narahat olma, bunlar AzTV-dən gəliblər, onsuz ora heç kim baxmır".

# Aprel hərbi uğursuzluğunun Ermənistanda əks-sədası




**Apreldəki 4 günlük müharibədə hərbi uğursuzluqdan sonra Ermənistanda daxili ictimai-siyasi vəziyyət artan xətlə gərginləşməkdə davam edir. Bu da təbiidir, proseslərin bu yöndə inkişaf edəcəyi barədə müstəqil ekspertlər proqnoz vermişdilər.**

# Sərkisyana qarşı silahlı qiyam: İrəvandakı qanlı olayın sirri

## Müxalifət silahlıları Daxili Qoşunların və polisin binasını ələ keçirdilər; yüksək çinli məmurların bir neçəsi girov götürüldü; şəhərə qoşun hissələri yeridildi; ölən və yaralananlar var; ölkə vətəndaş müharibəsi astanasında...

Məsələ də ondadır ki, müharibə faktoru üzərində Ermənistanda hakimiyyəti ələ keçirmiş "Qarabağ klanı", onun odioz üzvü, prezident Serj Sərkisyan günün birində elə bu amilə görə hakimiyyətdən gedə biləcəyini artıq hiss etməyə başlayıb.

Öz hakimiyyətinə artıq daxildən real təhlükə hiss edən Serj Sərkisyan gözləndildiyi kimi, aprel rüsvayçılığından sonra ölkədə özünə qarşı təhlükə kəsb edən bütün ünvanları susdurmağa, yeni həbslərə və orduda kadr dəyişikliklərinə start verib. Hakimiyyət hərisliyi onu hətta dünənədək qatı siyasi rəqib saydığı keçmiş prezident Levon Ter-Petrosyanın ayağına aparmışdı.

Lakin Sərkisyan rejiminin durumunu daha da qəlizləşdirən vazkeçilməz bir amil var. Bu da rəsmi İrəvanın Qarabağ məsələsində vaxtı yetişən real addımların atılması ilə bağlıdır - hansı addımlardan ki, o, dəhşətli şəkildə çəkinir, çünki bununla hakimiyyətinin süqutunun tezləşəcəyini yaxşı bilir.

İstənilən halda Azərbaycan əsgərinin şücaəti sayəsində Ermənistanın ziyanına dəyişən və "Qarabağ klanı"nın ənənəvi təbliğat silahını kəsərsiz hala gətirən status-kvo Ermənistan prezidentini təcili preventiv addımlar atmağa sövq edir. Necə aydır ölkədə siyasi opponentlərə qarşı aparılan "əcinə ovu"nun, hədə-şantajın, həbslərin, yaradılan xof atmosferinin arxasındakı əsas hədəf də budur.

Ancaq çətin ki, bu üsul-vasitələr 18 ildir (1998) xalqı yalan vədlərlə yemləyən "Qarabağ klanı"nı, Köçəryan-Sərkisyan rejimini xilas edə bilsin. İş ondadır ki, hakim rejimdən narazılıq təkcə iflas olan Qarabağ strategiyasına görə deyil, həm də ölkədə sosial-iqtisadi durumun, korrupsiya-rüşvətin heç vaxt olmadığı qədər acınacaqlı səviyyəyə çatmasına, Ermənistandan miqrasiya axınının ifrat şəkil almasına, təbəqələşmənin dərinləşməsinə görədir...

***

Artıq qonşu ölkədən silahlı qiyam, çevriliş cəhdləri haqda məlumatlar gəlməkdədir. Belə ki, dünən səhərdən Ermənistan KİV-lərində və sosial şəbəkələrdə paytaxt İrəvanda silahlı üsyan haqqında informasiyalar yayılmağa başlayıb. Musavat.com-un məlumatına görə, bundan bir qədər sonra Ermənistan Milli Təhlükəsizlik Xidməti bu xəbərlərin doğru olmadığı barədə bəyanat yayıb və dövlət orqanlarının adi rejimdə işləməkdə davam etdiyini iddia edib.

Lakin bəyanatda etiraf edilir ki, bir qrup silahlı şəxs ötən gün səhər Ermənistan polisinin komendant alayı ərazisinə daxil olublar və silah təhdidi ilə oradakı şəxsləri girov götürüblər. O cümlədən, Polis İdarəsinin rəis müavinləri Yeqizaryan və Valeri Osipyan girov götürülüblər.

Bəyanatda təsdiq edilir ki, komendantlığı ələ keçirənlərlə danışıqlar aparılır. Eyni zamanda sosial şəbəkələrdə üsyançılar kimi təqdim olunan silahlı şəxslərin digər dövlət obyektlərini də ələ keçirməsi haqda informasiyalar yayılmaqda davam edib. Təhlükəsizlik xidməti bu və hər hansı digər belə hərəkətlərin ən ağır şəkildə cəzalandırılacağı barədə xəbərdarlıq edib.

Rəsmi açıqlamada hücum edənlərin müxalif "Yeni Ermənistan" ictimai təşkilatının rəhbəri Jirayr Sefilyanın azad edilməsini tələb etdiyi deyilir. Lakin Ermənistanın rəsmi dairələrindən verilən bəyanatların əksinə olaraq, qiyamçıların əsas tələbinin prezident Serj Sərkisyanın istefası olduğu deyilir. Bunu hadisə haqqında ilk məlumat yayan "Müəssisələr Parlamenti"nin vitse-prezidenti Varujan Avetisyan keçirdiyi xüsusi mətbuat konfransında bəyan edib. O, "silahlı üsyanın başlandığını", bir sıra polis məntəqələrinin ələ keçirildiyini də söyləyib. Sayı 25-ə yaxın olduğu deyilən silahlılar Serj Sərkisyanın istefasını tələb ediblər.

***

Daha sonra daxil olan xəbərlərə görə, Daxili Qoşunların və polis binasının ələ keçirilməsi zamanı bir nəfər - polis polkovniki Artur Vanoyan ölüb, daha bir neçə polis zabiti və əməkdaşı yaralanıb. Az sonra bəlli olub ki, binanın azad edilməsi məqsədilə hadisə yerinə əlavə qoşun hissələri, zirehli texnika göndərilib. Polis qüvvələri İrəvanın Erebunu rayonuna gedən yolları mühafizə altına alıb. Rayonun polis idarəsinin yaxınlığında əhali evakuasiya edilib. Polis, daxili qoşunlar və xüsusi təyinatlıların böyük qüvvələri əməliyyata cəlb olunub.

Qəzet çapa gedərkən qiyamçılarla güc strukturu nümayəndələri arasında binanın boşaldılması və girovların azad edilməsi ilə bağlı danışıqlar davam edirdi. Məlumatlara görə, silahlılar tərəfindən ələ keçirilən polis binasına yaxınlaşan vətəndaşlar həbs olunurlar. Həbslər həmçinin, İrəvanın digər rayonlarında, Gümrü, Kirovakan və digər şəhərlərdə aparılır. Bir sıra siyasi fəallar və müxalif qüvvələrin tərəfdarları tutulub (Virualaz.org). Gümrüdə "Asparez" qəzetinin baş redaktoru, hüquq müdafiəçisi Levon Barseqyan, Kirovakanda isə "Yeni Ermənistan" təşkilatının üzvü Asmik Evoyan atası ilə birgə saxlanılıb. Hakim partiyanın deputatı Levon Martirosyan bildirib ki, ölkə prezidenti Serj Sərkisyan terrorçulara güzəştə getməyəcək və istefa verməyəcək.

***

Beləcə, Ermənistanda Sərkisyan rejiminə qarşı mübarizədə artıq ilk qanlar töküblüb, ölənlər var, kütləvi həbslər başlayıb. Bütün bunlar isə heç şübhəsiz, bataqlıq effekti üzrə öz xalqından çoxdan ayrı düşmüş hakim qüvvənin süqutunu daha da tezləşdirəcək. Hər halda, tarixin acı təcrübəsi var.

❑ Siyasət şöbəsi



# Türkiyədə hərbi çevriliş cəhdi - türk pilotu və Gülənin taleyi...

## Rus təyyarəsini vuran pilot qiyamçılar arasında olub; Ərdoğan Güləni istədi; hər iki şəxsin taleyi müəmmalıdır

**Türkiyədə yaşanan 15 iyul hadisələri ötən ilin noyabrında Rusiyanın "Su-24" təyyarəsini vuran türk pilotun və 15 ildir Amerikada yaşayan Fətullah Gülənin taleyini yenidən gündəmə gətirdi. Buna səbəb türk pilotun hərbi çevriliş cəhdində iştirakı və Gülənin bu hadisələrdə adının keçməsidir.**

Ankara meri Melih Gökçek 15 iyul hadisələri ilə bağlı danışarkən rus təyyarəsini vuran pilotun Gülən təşkilatının üzvü olduğunu və qiyamda iştirak etdiyini bildirib: "Türkiyədə ötən gün baş verən hərbi qiyamda iştirak edənlərin arasında Rusiyaya məxsus "Su-24" təyyarəsini vuran pilot da olub. Həmin pilot terrorçu Fətullah Gülən təşkilatının üzvüdür. Bu günə qədər biz bunu demirdik. Amma mən bəyan edirəm ki, bizim Rusiya ilə münasibətlərimizi məhz bu alçaqlar korlamışdılar".

Bu açıqlamadan sonra düzəlməkdə olan Türkiyə-Rusiya münasibətlərinin daha da yaxşılaşdırılması üçün türk pilotun hətta Rusiyaya təhvil verilə biləcəyi barədə də iddialar var.

15 iyul hadisələrinin fonunda F.Güləni də Amerikanın geri qaytaracağı deyilir. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da hadisənin səhəri günü xalq qarşısındakı çıxışında ABŞ-a müraciət edərək, Güləni istəyib. "ABŞ-a səslənirəm ki, o şəxsi ya ölkədən deportasiya edin, ya bizə təhvil verin demişdim. Lakin dinləmədilər. İndi isə bu silahlı çevriliş cəhdindən sonra yenidən səslənirəm. Pensilvaniyadakı o şəxsi Türkiyəyə təslim edin. Əgər biz strateji tərəfdaşıqsa bu tələbimizi yerinə yetirin. Siz bizdən hansı terroristi istədiniz, biz təhvil vermədik? İndi də terrorçu siyahımızda yer alan o şəxsi bizə təslim edin", - Ərdoğan deyib.

Ümid Partiyasının sədri İqbal Ağazadə Ərdoğan hökumətinin türk pilotunu Rusiyaya təhvil verəcəyinə inanmır: "Vətəndaşlıq qanununun tələblərinə görə, cinayət törətmiş şəxs öz ölkəsində mühakimə olunur. Hətta bunu cinayət hesab etsələr belə-hərçənd ki, bunu cinayət hesab etmirəm-o şəxsin öz ölkəsində mühakimə olunmaq hüququ var. Dövlət də öz vətəndaşının digər ölkədə mühakimə olunmasına icazə vermir. Hətta öz vətəndaşı digər ölkədə cinayət törətmiş dövlət ekstradisiya haqqında qanuna uyğun şəkildə vətəndaşını geri almaq hüququndan istifadə edə bilir. Bu baxımdan iki qanunun tələblərinə görə, türk pilotun Rusiyaya təhvil verilməsi mümkün deyil və qanunlara birbaşa ziddir".



**İqbal Ağazadə:** "Qanunlara birbaşa ziddir"



**Arzu Nağıyev:** "Təhvil-təslim beynəlxalq səviyyədə həll olunmalıdır"

Partiya sədri Gülən məsələsinə də toxundu: "Con Kerrinin çox gözəl bir bəyanatı oldu. Türkiyə hökuməti indiyə qədər bir neçə dəfə Fətullah Güləni Amerikadan geri istədiyini bildirib, bunu mətbuat və ictimaiyyətin qarşısında deyib. Amma Kerri dedi ki, hələ indiyə qədər Türkiyə hökuməti bir dəfə də olsun, Gülənin geri qaytarılması ilə bağlı yazılı müraciət göndərməyib".

Sabiq MTN-çi, politoloq Arzu Nağıyev hesab edir ki, hər iki amilin həyata keçməsi üçün Türkiyədəki hərbi çevrilişlə bağlı istintaq yekunlaşmalıdır: "Türk pilotun o məsələlərdəki iştirakı ayrıca bir istintaq materialı kimi araşdırılmalıdır. Ondan sonra bu məsələyə baxılmalıdır. Əgər həmin pilot bu məsələdə iştirak edibsə, bunu təkbaşına edə bilməz. Yəqin ona əmr verən şəxs olub. Hətta Türkiyə prezidenti səviyyəsində təyyarənin vurulması məsələsi dəstəklənmişdi. Bugünkü gündə türk pilotun Rusiyaya qaytarılması inandırıcı görünmür".

A.Nağıyev F.Gülənin təhvil-təslim məsələsinin beynəlxalq müstəvidə həll olunmasının vacibliyini vurğuladı: "Siyasi cəhətdən bir şəxs barəsində hər hansı bir məsələ araşdırılırsa, bunu təhvil-təslim məsələsi ancaq beynəlxalq səviyyədə həll olunmalıdır. Dünya müstəvisində bir şəxs axtarışdadırsa, onun cinayəti sübut olunmayıbsa, həmin şəxsin öz ölkəsinə təhvil verilməsi praktikada yoxdur. Konkret Gülən məsələsinə gəlincə, Türkiyə prezidenti çıxışında bu məsələ ilə bağlı bəyanat verdi. Amma Kerrinin cavabının nədən ibarət olduğu hər kəsə məlum oldu. O bildirdi ki, rəsmi olaraq yazılı heç bir müraciət olunmayıb. Yalnız yazılı müraciət daxil olandan, sübutlar ortaya qoyulandan sonra onun ekstradisiya məsələsinin gündəmə gələ biləcəyini Kerri vurğuladı. Bu gün onun geri qaytarılması qeyri-mümkündür. Adından, tutduğu mövqedən asılı olmayaraq, hər hansı bir məsələdə dövləti cinayətdə ittiham olunursa, bu, sübuta yetirilərsə, ekstradisiya məsələsinə baxıla bilər".

❑ **Cavanşir ABBASLI**

# "Kiminsə Türkiyəni islamlaşdırmaq hədəfi ola bilməz"

## **Fazil Mustafa:** "Atatürkçülük, yaxud kamalizm həm də Türkiyəyə kifayət qədər zərər gətirmiş bir ideoloji xətdir..."

**İyulun 15-də Türkiyədə baş verən hərbi çevrilişə cəhd olayları dünya mediasının əsas xəbəri kimi qalmaqdadır. Hadisələrin qaynar çağında xarici mətbuatın əksəriyyəti olayları "Ərdoğanın islam hökuməti yıxılır", "Türk ordusu Ərdoğanın islami hökumətini taxtdan endirmək üçün hərəkətə keçdi" və s. bu cür başlıqlı xəbərlərlə çatdırmağa çalışdı.**



Bu da əsassız deyil. Çünki qardaş ölkədə hərbi çevrilişə cəhd edən qiyamçılar ölkənin ilk prezidenti Mustafa Kamal Atatürkün mirasını, dəyərlərini guya Ərdoğan islamlaşdırmasından qorumaq, yəni Türkiyə Cümhuriyyətinin dünyəvi dövlətçiliyini xilas etmək, demokratiyanın müdafiəsində durmaq üçün bu addıma getdiklərini iddia ediblər.

Qiyamçıların bu motivi həm daxildə, həm də xaricdə xeyli müzakirələrə səbəb olub. Doğrudanmı, Türkiyə islamlaşırmı, bəs Atatürk dəyərləri nədir?

Məsələ ilə əlaqədar deputat Fazil Mustafa "Yeni Müsavat"a açıqlamasında səslənən motivləri intriqalı terminlər adlandırdı: "Əslində kiminsə Türkiyəni islamlaşdımaq deyə hədəfi ola bilməz. Çünki ölkəni islamlaşdırmaq bütövlükdə mümkün deyil, modern dünyada da demokratik bir ölkədə bu yolverilməzdir. Seçki yolu ilə, xalqın iradəsi ilə hakimiyyətə gəldilər. Əgər xalq bu yaşam tərzini, onun hədəflərini, onun dünya görüşünü mənimsəməsə, ona səs verməz. Bu baxımdan hansısa siyasi liderin iqtidarında deyil ki, bir ölkəni islamlaşdırsın. Türkiyə modern bir ölkə olaraq qalacaq, çünki tarixi ənənələri elədir ki, islam dəyələrinə də sahib çıxaraq modern ölkə olaraq qalacaq".

F.Mustafanın sözlərinə görə, İslamın Türkiyədə bir qədər daha qabarıq görünməsinin tarixi kökləri var: "Çünki uzun illər xilafətin mərkəzi olaraq tanınıb. Və bu xilafətçilik duyğusu hər zaman istənilən Türkiyə siyasətçisində bir xarakter olaraq qalmaqdadır. Necə ki, Rusiyanın özündə istənilən prezident özünü çar kimi hiss edir, xarizma ruhunu daşıyır. Ancaq bu, o demək deyil ki, o çarizmi bərpa edir. Yəni bu, anlaşılmaz bir şeydir".

Fazil Mustafa "Atatürk dəyərləri, mirası" motivinə isə bu cür münasibət bildirdi: "Atatürkün özünün şəxsiyyət olaraq Türkiyə tarixində əvəzolunmaz rolu var. Yəni Türkiyəni xilas edən böyük dahi şəxsiyyətdir. Amma atatürkçülük, yaxud kamalizm Türkiyəyə kifayət qədər zərər gətirən, uzun müddət müəyyən qədər inkişafına da təsir göstərən bir ideoloji xətdir. Bu gün hərbi tarixə ilə danışanların böyük əksəriyyəti sanki ötən əsrin 30-cu illərdə olduğu kimi tək partiya, tək ideologiya ilə idarə olunmağa çağırışçı qismini daşıyırlar. Ona görə də bu hər iki tərəfin hansısa bir "ya islamlaşma, ya da layiqləşmə" deyə Türkiyəyə hədəf seçməsi yanlışdır. Ona görə də Türkiyənin öz yolu, dinamik cəmiyyəti var. Diqqət etsəniz görərsiniz ki, ötən ilin 80-ci illərində Türkiyədə çevriliş olanda insanlar bir qədər bunu passiv qarşıladılar. Siyasi qüvvələrdən hətta buna normal yanaşanlar da oldu. Amma bu indiki hərbi çevriliş vaxtı insanlar tamamilə modern dünyanın adamları kimi bunu həzm edə, qəbul etmədilər. Küçələrə də elə-belə, səbəbsiz və ya Ərdoğana görə axışmadılar ki. Bütün cəmiyyətin üzvləri bunu öz borcu bildi ki, çevrilişin qarşısını alsın. Beləliklə, fikrimcə, bu cür terminlər kəsin intriqalı terminlərdir. Kiminsə islamlaşma, layiqləşmə deyə hədəfi, imkanı yoxdur. Türkiyə belə də qalacaq. İslam dəyərləri üzərində modern ölkə olaraq həmişə bu ruhda da inkişaf edəcək".

❑ **Xalidə GƏRAY**

# Con Kerri: "ABŞ-ın hərbi qiyamı dəstəkləməsi barədə məlumatlar yalandır"

**"ABŞ-ın Türkiyədə hərbi çevrilişə dəstək verməsi barədə gedən xəbərlər tamamilə yalandır". Musavat.com Rusiyanın RBK agentliyinə istinadən xəbər verir ki, bu barədə ABŞ-ın dövlət katibi Con Kerrinin adından bildirilib.**



Con Kerri

Məlumata görə, Con Kerri Türkiyənin xarici işlər naziri Mövlut Çavuşoğlu ilə telefon söhbətində də öz həmkarını ABŞ-ın hərbi qiyamda heç bir rolunun olmadığı ilə bağlı əmin edib.

ABŞ Dövlət Departamentinin sözçüsü Con Kribinin sözlərinə görə, ABŞ-ın dövlət katibi öz həmkarı ilə söhbətində ABŞ-ın baş tutmayan hərbi qiyama dəstək verməsi barədə yayılan xəbərləri təkzib edərək, qiyamla bağlı təhqiqatın aparılmasında Vaşinqtonun kömək etməyə hazır olduğunu bəyan edib. C.Kerri Türkiyəni təmkinli olmağa və qiyamın araşdırılması zamanı insan hüquqlarının üstünlüyünə hörmət etməyə çağırıb.



# Azərbaycanlıların "Feysbuk"dakı xoruz və it döyüşü - biz niyə beləyik...

**Samir SARI**

**Biz yeniyetmə olanda özümüzdən balaca uşaqları "bu mənim şirimdir, o da sənin şirin olsun" deyə qızışdırıb güləşdirirdik. Ləzzət edirdi. Əlbəttə, özümüzün də "şir" olan vaxtlarımız olmuşdu.**

O xasiyyət dəyişməyib, indi dünyanın harasında dalaşanlar, yarışanlar, vuruşanlar varsa, biz dərhal iki tirəyə bölünüb tərəf tutur, azarkeşlik edirik.

Görünür, ötən əsrlərdə xoruz döyüşdürən, it boğuşduran dədə-babalarımızın bu xüsusiyyəti bizə genetik kodlarla ötürülüb və bu, hazırda bizdə "Real"la "Barcelona"nı, İspaniya ilə İtaliyanı, Ərdoğanla müxaliflərini (və sair və ilaxır) döyüşdürmək şövqü şəklində təzahür edir.

Bu günlərdə biz Türkiyədəki hərbi çevriliş haqq-hesabına görə ikiyə bölünmüşük. Hətta qardaş ölkədə vəziyyət sabitləşib, qiyam yatırılıb, amma bizim bu məsələyə dair apardığımız dava-şava, söyüşmə indi-indi şiddətlənir.

Ciddi deyirəm, adamlar iki qrupa bölünüb söyüşürlər. Biri yazır ki, əmrə tabe olan günahsız əsgərlərin şalvarını çıxarmaq, özlərini döymək oğraşlıqdır. Belə də yazırlar: "...oğraşlıqdır". Başqa biri də yazır ki, "Çevrilişə cəhdi dəstəkləyən yerli jurnalistlər və siyasətçilər idiotlardır".

Başqa pis-pis söyüşlər yazanlar da var. And olsun ağır seyidlərin cəddinə, iş belə getsə, sosial şəbəkədə sözləri çəpləşənlər vədələşib qıraq bir yerdə bıçaqlaşmağa da gedəcəklər.

Bax, yuxarıda sitatını verdiyimiz "idiot" deyənin açıqlamasını oxuyanda hiss olunur ki, adam çox nervilidir, deyir, "Türkiyənin demokratik hökumətinə, rejiminə qarşı atılan addımları axmaqcasına, satqıncasına və alçaqcasına dəstəkləyən hər kəs..." belədir, filandır.

Ay qardaş, niyə bu qədər nervilənirsən, devrilməsi planlanan kişinin - Ərdoğanın oğlu Bilal hadisə gecəsi papasının yanındaydı, heç bir belə həyəcanlı və əsəbi deyildi, sakitcə durub camaata tamaşa edirdi. Sənə nə olub axı, niyə özünə əl qatırsan?

Bu, çoxdan sübut olunub, biz Roma papasından da artıq katolik ola bilirik. Hələ o nədir ki, yeri gələndə biz Ronaldodan artıq portuqal, Şvaynstaygerdən (əslində Getze yazsam, daha maraqlı olardı) artıq alman, Qrizmanndan artıq fransız oluruq. O gün futbol üzrə Avropa çempionatının finalında qələbə qazanan portuqalların 7-8 yaşlı azarkeşi uduzan fransızların 23-25 yaşlı azarkeşini qucaqlayıb təsəlli verirdi, hiss olunurdu ki, uşaq ona "qaqa, neynək, gələn dəfə də siz udacaqsız" kimi nəsə deyir. Amma burdan-bura bizdə iki əmioğlu Fransa-Portuqaliya oyununun nəticəsinə görə bir-birinin xətrinə dəyiblər, küsülüdürlər, nəslin ilk hüzrü düşənə qədər də küsülü qalacaqlar.

Uzaq xarici ölkələrdə gedən hərbi-siyasi-idman-musiqi yarışmalarında tərəf tutmağımız və ürəkdən azarkeşlik etməyimiz, məncə, psixoloji səpkidə fenomendir. Bunu gərək psixoloqlar araşdırsanlar, görsünlər, biz niyə belə edirik.

Yenə bənzər hallar siyasət məsələlərində başa düşüləndir, demokratlar, yaxud özlərini demokrat sayanlar hesab edirlər ki, məsələn, Nikaraquada hakimiyyətə demokrat namizəd gəlsə yaxşıdır. Ta o demokrat gəlib nə turd (ispanca ...) yeyəcək, dəxli yoxdur.

Yeri gəlmişkən, bizdə iqtidar düşərgəsinə yaxın olan şəxslər dünyanın harasında olursa-olsun, nəyə görəsə eyzən avtoritar liderlərin tərəfini tuturlar. O vaxt Ukraynada Kuçma hakimiyyətdən getmək istəməyəndə iqtidarçı azarkeşlər Kuçmanın tərəfindəydilər, müxalifətçilər isə Yuşşenkoya qahmar çıxırdılar. Elə oldu ki, Yuşşenko qalib gəldi, ancaq prezident olduğu dövrdə nəinki başqa ölkələrdəki demokratlara xoş üz, heç öz ölkəsində yaralı barmağa ilk tibbi yardım da göstərmədi. Amma o, hakimiyyətdən gedəndə bizim iqtidarçı azarkeşlər onun rəqibini - Yanukoviçi dəstəklədilər. Sonra Yanukoviç hakimiyyətdən gedəndə bizimkilər onun yerinə iddia edənlərə qarşı oldular.

Eyni durum Gürcüstanda Saakaşvilinin hakimiyyətə gəlib-getməsi prosesində də yarandı. Yazıq Saakaşvili 8 il boyunca o qədər əziyyət çəkdi, yoxdan nümunəvi dövlət qurdu, ölkəsini xeyli qabağa apardı, bütün Avropanın sevimlisi oldu, amma özünü bizim iqtidarçı azarkeşlərə sevdirə bilmədi. Hələ də söz düşəndə bizimkilər deyirlər, Saakaşvili populistdir, avantüristdir, Jvaniyanın qatilidir, filandır.

Bəli, bizdə belədir. Biz dünyanı öz arşınımızla ölçür və dünyada gedən ölüm-dirim savaşlarının fonunda dayanıb öz taxta qılınclarımızla savaşırıq.

# Növbəti bahalaşma dalğası gəlir

## Ekspertlər qiymət artımının gözlənildiyi sahələri açıqladılar; çörək də bahalaşa bilər



**Bir neçə gün əvvəl ölkədə işıq pulunun bahalaşması digər sahələrdə də bahalaşma ilə bağlı narahatlıqlar yaradıb. Ekspertlər bildirirlər ki, artımlar əsaslı olmasa da, gözləniləndir. Daha çox nəqliyyat xərclərinin və həmçinin çörəyin qiymətinin artması gözlənilir.**

Ekspert Qubad İbadoğlu musavat.com-a işıq pulunun artımından sonra növbəti gözlənilən bahalaşma istiqamətlərini açıqlayıb. O bildirib ki, ilk olaraq qatarlarda və metroda gedişhaqqının bahalaşması mümkündür: "Çünki həm dəmiryol, həm də metro nəqliyyatında istifadə olunan enerji kifayət qədər yüksəkdir. Əgər sektorlara baxsaq, metallurgiya daha çox enerji istehlak edir. Eyni zamanda, emal sənayesindən dəyirmanlar, un üyüdən sexlər, çörəkbişirmə sexləridir. Onların enerjiyə kifayət qədər tələbatı olur. Nəzərə alsaq ki, işığın qiyməti bahalaşıb, onda mümkündür ki, un üyüdən sexlərdə enerjiyə olan ödənişlərinin xərc tutumunda çəkisinin artması çörəyin və qənnadi məmulatlarının da qiymətinin bahalaşmasına təsir göstərə bilər. Əsasən narahat edən məqam gedişhaqqı və çörəyin bahalaşmasıdır. Metroda gedişhaqqı bahalaşsa, avtobuslar nəqliyyatında da gedişhaqqının qiymətinə təsir göstərəcək. Eyni sektordur, qiymət bahalaşması digərinə təsir göstərəcək".

Ekspert Natiq Cəfərli isə musavat.com-a açıqlamasında qeyd edib ki, əslində təbii inhisarların hamısında qiymət artımının olması ehtimalı yüksəkdir: "Təbii inhisarlar Tarif Şurası tərəfindən tənzimlənir. Bundan sonra qazın qiymətində və nəqliyyat xərclərində artımın olması ehtimalı çox yüksəkdir. Ən azından, nəqliyyatla bağlı bir neçə dəfə müraciət də edilib. Metroda, avtobuslarda gedişhaqqı ilə bağlı müraciətlər olub. Çox güman ki, növbəti addım kimi yaxın gələcəkdə təbii qazın və nəqliyyat xərclərinin artmasının şahidi ola bilərik. Amma bunlar əsaslı deyil. Elektrik enerjisinin artımı da əsaslı deyildi. Çünki daxili istehsal hesabına başa gəlirdi. Sadəcə təbii inhisarçıların çox pis idarə olunmasının nəticəsində onların borcları yığılıb. İdarəetmədə olan problemləri, borc problemlərini vətəndaşın cibi hesabına həll etməyə çalışırlar. Bu da çox səhv, yanlış bir yoldur".

Ekspert Elşad Məmmədov isə qeyd edib ki, elektrik enerjisinin qiymətlərinin artırılmasının fəsadları özünü tezliklə göstərəcək: "Tarif Şurasının son qərarı ilə elektrik enerjisinin tariflərinin artırılması sözsüz ki, sosial-iqtisadi proseslərə öz təsirini göstərəcək. Belə ki, ölkədə istehsal olunan əksər əmtəə və xidmətlərin formalaşmasında elektrik enerjisinin xüsusi çəkisi kifayət qədər əhəmiyyətli rol oynayır. Bu baxımdan elektrik enerjisinin qiymətlərinin artımı bir çox digər sahələrdə də qiymət artımına səbəb olacağı gözlənilir. Bildiyimiz kimi, kənd təsərrüfatı, qida sənayesi, metallurgiya, kimya sənayesi məhsullarının qiymətlərinin formalaşmasında, eləcə də ticarət və xidmət sahələrində, o cümlədən metro və dəmir yolu nəqliyyatında qiymətlərin formalaşdırılmasında elektrik enerjisinin xüsusi çəkisi əhəmiyyətli dərəcədə yüksək səviyyədədir. Buna görə də bu sahələrdə yaxın perspektivdə qiymət artımını müşahidə edəcəyimizi proqnozlaşdırmaq olar. Bundan əlavə, istehlak bazarında inhisarçılığın yüksək səviyyədə olduğunu nəzərə alaraq, inhisarçılar tərəfindən elektrik enerjisi qiymətlərinin artırılmasından istifadə edərək öz məhsul və xidmətlərinə qiymətləri bir qədər də artıracağına cəhd edəcəkləri ehtimalı mövcuddur".

❑ **Röya RƏFİYEVA**

# "Real iqtisadi şərait manatın zəifləyəcəyini göstərir"

## **Ekspert:** "Hökumət sərt devalvasiyaya qarşı maksimum müqavimət göstərməyə məcburdur"



**"Əsası, bünövrəsi olmayan qərarlar dayanıqlı iqtisadi effekt vermir". Ekspert Elşad Məmmədov milli valyuta olan manatla bağlı son peroseslərə münasibət bildirərkən belə deyib. O, musavat.com-a açıqlamasında bildirib ki, manat hələ də izibati üsullarla tənzimlənir:**

"Mərkəzi Bank tərəfindən manatın bazar iqtisadiyyatı prinsipləri ilə "üzən məzənnə" əsasında formalaşması barədə qərarın bəyan edilməsindən 6 aydan artıq vaxtın keçməsinə baxmayaraq, manatın məzənnəsi daha çox valyuta bazarındakı real vəziyyətlə deyil, inzibati üsullarla tənzimlənir. Sadəcə olaraq, əgər bu ilin əvvəlinə kimi manatı qorumaq üçün valyuta bazarına intervensiyalar Mərkəzi Bankın vəsaitləri hesabına həyata keçirilirdisə, ilin əvvəlindən Mərkəzi Bankın ehtiyatlarının kəskin azalması səbəbindən intervensiyalar Dövlət Neft Fondunun vəsaitləri hesabına həyata keçirilir. Bundan əlavə, ölkədə sərt restruktiv monetar siyasət tətbiq edilir ki, bunun da əsas məqsədi pul kütləsinin azaldılması və manata tələbatın artırılması vasitəsi ilə milli valyutaya təzyiqin azaldılmasıdır. Lakin bütün yuxarıda qeyd edilənlər nə orta, nə də uzunmüddətli perspektivdə manatın möhkəmlənməsini təmin etmək iqtidarında deyil".

Ekspertin sözlərinə görə, hazırkı iqtisadi şəraitdə əsas fundamental makroiqtisadi amillər manatın möhkəmlənməsinin əksinədir: "Belə ki, 2016-cı ilin ilk rübünün tədiyyə balansına əsasən, ölkə iqtisadiyyatı ilin əvvəlini təxminən 1,2 milyard dollar mənfi saldo ilə başa vurub. Nəzərə alsaq ki, həm cari əməliyyatlar hesabı, həm də maliyyə hesabı üzrə 2016-cı ilin ikinci rübündə də bu tendensiyaların əhəmiyyətli dərəcədə dəyişməsi müşahidə olunmayıb, 3-4-cü rüblərdə də vəziyyətin dəyişdirilməsi proqnozlaşdırılmır, manata təzyiqin davam edəcəyini əminliklə söyləmək olar".

Devalvasiyanın nə zaman olacağına gəldikdə isə E.Məmmədov vurğulayıb ki, hazırkı vəziyyətdə bu daha çox hökumətin bu istiqamətdə verdiyi inzibati qərardan asılıdır: "Çünki real iqtisadi şərait manatın zəifləyəcəyini göstərir. Lakin ölkədə mövcud olan sosial-iqtisadi vəziyyət, daxili bazarın, o cümlədən istehlak bazarının idxaldan asılılığının kritik səviyyədə olması, fikrimcə, hökuməti sərt devalvasiyaya qarşı maksimum müqavimət göstərməyə məcbur edir. Buna görə də devalvasiyanın konkret olaraq hansı ayda baş verəcəyi, Azərbaycan şəraitində iqtisadi qanunlardan çox, inzibati qərarlardan asılıdır. Bununla belə, nəzərə almaq lazımdır ki, iqtisadi proseslərin, iqtisadi sistemlərin spesifikası ondan ibarətdir ki, iqtisadi bünövrəsi olmayan qərarlar dayanıqlı iqtisadi effekt vermir. Hökumətin iqtisadi blokunun, Mərkəzi Bankın bu məsələdə imkanları məhduddur. Ölkənin strateji valyuta ehtiyyatları kəskin azalmış və bu prosesin dərinləşməsi iqtisadi cəhətdən, sözsüz ki, məqbul deyil. Ona görə də düşünürəm ki, yaxın aylarda ölkə hökuməti manatın devalvasiyasının qarşısını ala bilməyəcək. Hökumətin mövcud inzibati və iqtisadi resursları devalvasiyanın nisbətən kəskin olmamasına yönəldiləcək. Ölkənin milli valyutasının dayanıqlı şəkildə möhkəmlənməsi üçün istehsal prosesinin, real sektorun inkişafı, struktur disbalansın azaldılması, idxal-ixrac əməliyyatlarında struktur dəyişikliklər istiqamətində real nailiyyətlərin əldə olunması, ölkədən kapital axınının qarşısının alınması zəruridir. Yalnız bu şərtlər çərçivəsində, milli valyutanın dayanıqlı möhkəmlənməsindən söhbət gedə bilər".

❑ **RÖYA**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 154 (6475) 18 iyul 2016



# Qarabağa dair Moskva danışıqları - sıçrayış olacaqmı?

## Sülh prosesindən xoflanan Ermənistan prezidenti aprel döyüşlərindən sonra üçüncü dəfə Xankəndinə gedib; danışıqlar üzərində mübhəmlik pərdəsi nə qədər qalacaq?

**Ötən həftənin Dağlıq Qarabağ kontekstində önəmli hadisələrindən biri də Moskvada Rusiya və ABŞ xarici siyasət idarələri başçıları - Sergey Lavrov və Con Kerri arasında aparılan danışıqlar oldu. Danışıqlar zamanı Suriya böhranı, beynəlxalq terrorizmlə mübarizə məsələsi ilə yanaşı, Qarabağ münaqişəsi də diqqət mərkəzində oldu ki, bu da təqdirəlayiq sayıla bilər.**




ABŞ dövlət katibi Con Kerri görüşün yekunlarından danışarkən Rusiya prezidenti Vladimir Putinə Qarabağ nizamlanması yönündə səylərinə görə təşəkkür edib. “Mən prezident Putinə məsələdə lider roluna görə minnətdaram” - Kerri qeyd edib. Dövlət katibinin sözlərinə görə, Qarabağ konflikti zonasında yeni hərbi eskalasiyadan qaçmaq hamının maraqlarına uyğundur. “Mən şübhə eləmirəm ki, Rusiya, Amerika və Fransanın dəstəyi varsa, tərəqqi üçün potensial da olacaq” - ABŞ xarici siyasət idarəsinin başçısı qeyd edib.

*****

Moskvada iki dövlət arasında danışıqlarda Suriya və beynəlxalq terrorizm məsələləri ilə eyni vaxtda müzakirə edilməsi şübhəsiz ki, Güney Qafqazın ən köhnə və üzücü probleminə qlobal güclərin artan diqqətin göstəricisidir. Ancaq Con Kerrinin də vurğuladığı kimi, belə görünür, Qarabağla bağlı əsas narahatlıq hələ ki, sırf yeni müharibə ehtimalına görədir.

Əksər siyasi müşahidəçilər də hesab edir ki, aprel döyüşlərindən sonra Qarabağa dair ən yüksək səviyyədə keçirilən görüşlərdə vasitəçi güclərin əsas hədəfi məhz konfliktin təzədən qaynar fazaya keçməsinin qarşısını almaqdır.

Əlbəttə ki, müharibədə Azərbaycan da maraqlı deyil. Ancaq Azərbaycan öz ərazilərinin nəhayət ki, azad olmasını gözləyir və artıq danışıqlar xətrinə danışıqlara qatılmaq niyyətində deyil. 4 günlük aprel müharibəsi bu xüsusda işğalçı Ermənistana və Minsk Qrupu həmsədrlərinə aydın bir şəkildə və son xəbərdarlıq idi ki, status-kvo əbədiyyən indiki kimi qala bilməz, əks halda, böyük müharibə qaçılmaz olacaq.

*****

Bəs Qarabağa dair Moskvada yüksək səviyyədə danışıqlar mövcud status-kvonun pozitivə dəyişməsinə kömək edə, nizamlama prosesində sıçrayışa gətirə bilərmi? Hələlik söyləmək çətindir. Ona görə ki, danışıqlar əsasən bağlı qapılar arxasında gedir və ictimaiyyət həmin danışıqların gedişindən çox az məlumatlıdır. Yalnız belə bir rəy mövcuddur ki, münaqişə tərəflərinə təklif edilən və “Lavrov planı” adlanan model daha çox mərhələli həlli özündə ehtiva edir.

Həmin plana görə, ilkin mərhələdə Dağlıq Qarabağ ətrafındakı 7 rayondan 5-i işğaldan azad edilir, həmin rayonlar hərbsizləşdirilir, köçkünlər bu rayonlara və Dağlıq Qarabağa qayıdır, sülhməramlı qüvvələr bölgəyə yerləşdirilir, Ermənistanla Dağlıq Qarabağ arasında “humanitar dəhliz” məsələsi həllini tapır, Dağlıq Qarabağa aralıq status verilir, yekun status və Laçın Kəlbəcər rayonlarının taleyi isə sonrakı mərhələyə saxlanılır.

Bəzi məlumatlara görə, ilkin mərhələdə Dağlıq Qarabağ ətrafında 6 rayon və Laçının əksər kəndlərinin boşaldılması nəzərdə tutulur. O da bildirilir ki, münaqişə tərəfləri arasında əsas ziddiyyət azad ediləcək ərazilərin ardıcıllığı və Dağlıq Qarabağın yekun statusunun necə müəyyən ediləcəyi ilə əlaqədardır. Bir şey dəqiqdir ki, sülh prosesi Ermənistanın nəzarət elədiyi Azərbaycan torpaqlarından çıxmasından başlamalıdır.

*****

Bu arada ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik vasitəçilərin Azərbaycan və Ermənistan prezidentləri İlham Əliyev və Serj Sərkisyanın növbəti görüşünü mümkün qədər tez təşkil etməyə çalışacaqlarını deyib. Bu həftə isə danışıqları intensivləşdirmək məqsədilə Minsk Qrupu həmsədrləri ilk dəfə Türkiyəyə getməyi planlaşdırır. Bu da sülh prosesində doğrudan da müəyyən dinamika olduğunu göstərir.

Xatırladaq ki, prezidentlərin növbəti görüşünün Parisdə keçiriləcəyi haqda məlumat yayılıb. Lakin hələ ki, tərəflər rəsmi olaraq bunu təsdiqləməyib. Bütövlükdə isə aprel ayındakı 4 günlük müharibədən sonra prezidentlər səviyyəsində iki görüş baş tutub. Etimad görüşləri kimi qiymətləndirilən həmin görüşlərdən biri Vyanada, biri isə Sank-Peterburqda reallaşıb.

Sülh danışıqlarında qeyri-konstruktiv mövqeyini saxlayan Ermənistanın prezidenti Serj Sərkisyan isə ötən həftəsonu aprel döyüşlərindən sonra sayca üçüncü dəfə Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsinə gedib. Erməni mənbələrinin məlumatına görə, Sərkisyan separatçıların lideri ilə Qarabağ konflikti ilə bağlı məsləhətləşmələr aparacaq.

Ümumiyyətlə, işğalçı ölkə başçısının aprel olaylarından sonra Xankəndinə tez-tez getməsi siyasi müşahidəçilərin də diqqətindən yayınmayıb. Belə hesab edilir ki, Sərkisyan Qarabağ məsələsi ətrafındakı son durumun mümkün inkişaf ssenarilərindən narahat olduğu və müəyyən mənada çıxılmaz duruma düşdüyü üçün separatçı bölgəyə səfərlərini artırıb.

Söhbət ilk növbədə onun hakimiyyətinə təhlükədən gedir. Sərkisyanın lap yaxınlaradək özünün qatı siyasi rəqibi saydığı sabiq prezident Levon Ter-Petrosyanın ayağına getməsi də bu motivdən qaynaqlanmışdı. Ermənistandakı son olaylar, qiyam cəhdləri bu qənaəti gücləndirir.

*****

Dağlıq Qarabağ münaqişəsi zonasında müharibə ehtimalı isə qalır. Aprel olaylarından ötən hər nəticəsiz ay yeni müharibə risklərini artırır ki, azaltmır. Bu riskləri yaxın bir neçə ayda - hərbi əməliyyatların ən əlverişli sayıldığı dövrdə önləmək mümkün olacaqmı? Söyləmək çətindir.

Situasiyanı qəlizləşdirən faktorlardan biri də bölgədə, Türkiyə və Ermənistanda baş verən son olaylardır. Bu olayların konkret olaraq Dağlıq Qarabağ məsələsinə hansı neqativ təsirləri göstərəcəyini yəqin ki, çox gözləmək lazım gəlməyəcək. Bir şeyi dəqiqliklə söyləmək olar ki, proseslərin hansı yöndə inkişafı qlobal və regional oyunçuların Qarabağ məsələsində nə dərəcədə uzlaşdırılmış və sinxron siyasət yürüdəcəyindən asılı olacaq. İmitasiyalar dönəmi artıq arxada qalıb.

# Ermənistan silahlı bölmələri atəşkəsi 8 dəfə pozub

**Erməni silahlı bölmələri ötən gün cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 8 dəfə pozub.**

Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə və Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun Horadiz kəndi yaxınlığında, həmçinin Goranboy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.





# Bakıda onlarla uşaq ölüm təhlükəsi ilə üz-üzədir

## Burada azyaşlılar yaşadıqları daxmaların qarşısında, binanın damında oynayırlar...

**Xətai rayonu, Gəncə prospekti 20A ünvanında yaşayan sakinlər məskunlaşdıqları binanın qəzalı vəziyyətdə olmasından narahatdırlar. Əvvəllər 16 mərtəbəli olan bina qəzalı durumda olduğu üçün 7 mərtəbəsini sökük və bu yolla təhlükənin qarşısını almağa çalışıblar.**



Lakin illər keçdikcə bina getdikcə daha çox qəzalı vəziyyətə düşdüyündən indi təhlükə daha da artıb. Kənardan baxdıqda binanın sol hissəsinin çökdüyünü aydın şəkildə görmək olur. Bundan əlavə, kanalizasiya və qurunt sularının zirzəmiyə dolması binanın uçma təhlükəsini artırır.

Ən dəhşətli məqamlardan biri də indi 9 mərtəbəsi qalan binanın damında yaşayışın olmasıdır. Burada yaşayan sakinlər üçün ölüm gözlə qaş arasındadır. Məcburi köçkün ailələri illərdir ki, burada təhlükə ilə göz-gözə, acınacaqlı durumda yaşayırlar. Azyaşlı uşaqlar elə yaşadıqları daxmaların qarşısında, binanın damında oynayırlar.

Çəkiliş zamanı həmin yerə çıxmaq bizim üçün çətin olsa da, onlar üçün artıq adiləşib. Gözlərini binanın damında açan, orada doğulub, böyüyən uşaqlar hər an 9-cü mərtəbədən aşağı düşüb, ölə biləcəklərini düşünmürlər.




Buradakı mənzərə insanın qanını dondurur. Binanın damı uşaqlar üçün oyun məkanına çevrilib. Damın kənarlarına isə heç bir qoruyucu sədd çəkilməyib. Kiçik bir diqqətsizlik faciə ilə nəticələnə bilər.

Füzuli rayonundan məcburi köçkün olan Yasin Əliyev binanın damında yaşamağa məcbur olduqlarını bildirdi: "Əlacsız qalmışıq. Qaçqın düşəndən elə burada məskunlaşmışıq. Binanın damı uşaqlarımızın oyun meydançasına çevrilib. Nə qədər nəzarət etsək də, mümkün deyil. Bundan əlavə, binanın həyətinə düşmək üçün yeganə çıxış yolu binanın damındandır. Məcbur qalıb, təhlükəli yollarla aşağı düşürük. Bu ilin mart ayından Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən siyahılaşma aparılıb ki, köçürmə olacaq. O vaxtdan bu günə kimi heç kim bizimlə maraqlanmır. Binanın qəzalı vəziyyətdə olması sakinləri qorxuya salır. Dəfələrlə aşağı mərtəbələrdən yıxılanlar olub. Mənzillərdə iri çatlar yaranıb, tavan çökür. Bu qədər insan ölümünün bir addımlığındadır. Aidiyyəti qurumlara bu barədə şikayətlərimizi bildirsək də, heç bir nəticə verməyib".

❑ **Məğrur MƏRD**
**Fotolar müəllifindir**

# Aldadılan qızıl alverçisinin başına gələnlər

**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Rusiya vətəndaşı İslam İbrahimov və qeyri-rəsmi nikah münasibətində olduğu Nigar Saqıyevanın məhkəmə prosesi keçirilib.**

Musavat.com-un məhkəmə prosesində iştirak edən müxbiri xəbər verir ki, hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə prokuror ittiham aktını elan edib, zərərçəkmiş şəxslərdən biri ifadə verib.

İttiham aktında qeyd edilir ki, İslam İbrahimov bir neçə nəfərdən torpaq sahələrinə sənəd düzəltmək, ticarət obyektlərinin eskiz layihələrini təsdiqlətmək adı ilə külli miqdarda pul alıb. Verdiyi vədlərə əməl etməyən İ.İbrahimov aldığı pulları geri qaytarmayıb. Bu işdə ona qeyri-rəsmi nikah münasibətində olduğu Bakı sakini Nigar Saqıyeva da kömək edib. Tərəflərin şikayəti əsasında həbs edilən İ.İbrahimov və N.Saqıyeva barəsində Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə cinayət işi açılıb.

Rusiya vətəndaşı olan İslam İbrahimov Bakı şəhər sakini Feyruz Babayevin ofis və ticarət mərkəzi tikmək istədiyini öyrənib və eskiz layihənin təsdiq edilməsi üçün Bakı Şəhər İcra Hakimiyyətində olan tanışları vasitəsi ilə bu işi görə biləcəyini deyib. Bu məqsədlə F.Babayevdən əvvəlcə 23850 manat, daha sonra isə 20 min manat alan İ.İbrahimov uzun müddət keçməsinə baxmayaraq verdiyi vədə əməl etməyib. Tərəflər arasında yaranan mübahisədən sonra İ.İbrahimov aldığı pulun bir hissəsini- 23 min manatını geri qaytarıb. Digər hissəsini isə qısa zamanda qaytaracağını vəd edib.

Digər bir vətəndaşdan isə spirtli içkilərin istehsalı üçün nəzərdə tutulan "Azəri" MMC-nin fəaliyyəti üçün Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindəm lisenziya alacağı vədi ilə 140 min manat alıb. İttiham aktında Feyruz Babayevə ümumilikdə 70 min 850 manat məbləğində zərər dəydiyi qeyd edilir. İ.İbrahimov özünü təqsirli bilmədiyini deyib.

Digər təqsirləndirilən Nigar Saqıyeva isə Xaçmaz rayon sakini Fatma Fərzəliyevadan 16 min manat dəyərində qızıl-zinət əşyaları və 2800 manat nağd pul alıb. N.Saqıyeva nağd pulun 1960 manatını qaytarsa da, pulun

## "İcra başçısına "Şəmi müəllim" deyirik..."



digər hissəsini və qızılları qaytarmayıb.

İttiham aktından sonra hakimin sualına cavab verən N.Saqıyeva özünü qismən təqsirli bildiyini deyib. Zərərçəkmiş kimi tanınan Fatma Fərzəliyeva məhkəmə prosesində ifadə verib. 20 ildir Xaçmazda qızıl alveri ilə məşğul olduğunu deyən F.Fərzəliyeva Nigar Saqıyevanı Ülkər adı ilə tanıdığını söyləyib.

2012-ci ildən Xaçmazda yaşayan N.Saqıyeva da Fatma Fərzəliyevanı qızıl alverçisi kimi tanıyıb və bundan sonra onlar arasında qızıl-zinət əşyalarının alış-verişi ilə yaxın münasibətlər başlayıb. Zərərçəkmiş ifadəsində deyib ki, Ülkər kimi tanıdığı qadın ondan bir neçə dəfə bahalı qızıllar alıb, çevrəsində zəngin insanların, vəzifəli şəxslərin xanımları ilə əlaqələrinin olduğunu, tez-tez onlarla eyni məkanlarda görüşdüyünü deyib. Bununla da Fatma Fərzəliyevanın etibarını qazanan Nigar Saqıyeva sonda qeyd edilən cinayət əməlini törədib.

"Ümumilikdə məndən 16 min 76 manat dəyərində qızıl alıb. Bir ay ərzində hissə-hissə vermişəm. Məni Xaçmazda hamı qızıl alverçisi kimi tanıyır. Halal zəhmətimlə pul qazanmışam. 3 uşaq böyütmüşəm. Təzə və ikinci əl qızılların satışı ilə məşğulam. Bu da məndən qızılları alanda yaxın və imkanlı rəfiqələrinə satacağını dedi. Bir ay ərzində götürdüyü bu qızılların hamısını satdığını, bir neçə günə pulunu verəcəyini dedi. Mən də sevindim ki, bu qədər qızılı birdən satdım. Mən qızılları nisyə alıb satırdım. Mağazalardan neçə ildir alver edirəm. Ülkər uzun müddət keçsə də qızılların pulunu vermədi. Əslində mən ona çox inanırdım. Vəzifəli şəxslərlə telefonda danışırdı. Onlara "bəy" deyə müraciət edirdi. Elə gözəl danışırdı ki, mənim də xoşuma gəlirdi" - deyə zərərçəkmiş ifadəsində bildirib.

Qızılların pulunu ödəməyən N.Saqıyeva Fatma Fərzəliyevaya söz verib ki, ona məxsus torpaq sahəsi və obyekt satılandan sonra pulunu verəcək və bunun üçün ona 4-5 günlük vaxt lazımdır: "Ülkərin yaxşı çevrəsi olduğuna, imkanlı şəxslərlə münasibəti olduğuna o qədər inanırdım ki. Bunun əksini heç vaxt hiss etməmişdim. Hərdən onlara da gedirdim. Əslən Qubadan olduğunu bilirdim. Deyirdi ki, Qubanın havası düşmür deyə burada qalır. Ancaq hərdən evlərinə gedəndə deyirdim ki, niyə bunun bir bacısı, qardaşı, qohumu yoxdur? Tez-tez Nabrandan istirahətdən gəldiyini deyirdi. Orada da olanda mənimlə danışırdı. Qızılları satacağı adamları belə mənimlə telefonla danışdırmaq istəyirdi. Ancaq inandığım üçün istəmirdim. Qızılların pulunu vermədi. Dedi ki, 3-4 günə Nabranda olan bağ evi satılır. Dəqiq adı yadımdan çıxıb. Amma dedi ki, deputatlardan birinin köməkçisi ilə danışır. Bağı ona satırdı. Dəyəri də 1 milyon manat idi. Həmin adamla mənim yanımda da telefonla danışırdı. Sonra satış zamanı sənədlərdə problem olduğunu və həlli üçün 2800 manat lazım olduğunu dedi. Mənim yanımda telefonla danışanda deputatın köməkçisi dedi ki, sənəddəki səhvi düzəlt, al-qı-satqı bu gün olsun. Mən də sələmə pul götürüb verdim. Bir də Xaçmaz yolunda bir obyekt var idi. Üstündə satılır yazılırdı. Deyirdi ki, bu da bizimdi. Onu da satırdı. Mənə dedi ki, "gedək Şəmi müəllimin yanına danışaq, sənin danışıq qabiliyyətin yaxşıdır". Xaçmazın icra başçısı Şəmsəddin müəllimə aramızda "Şəmi müəllim" deyirik. Mən razılaşmadım. Nəysə. Satış baş tutmadı. Nigar yoxa çıxdı. Telefonunu söndürdü".

Daha sonra Nigar Saqıyevanın ona Qəbələdən zəng etdiyini və aldığı pulu qaytaracağını bildirdiyini deyib: "Mənə zəng elədi ki, gəl Qəbələyə pulunu verim. Mən də canımın dərdindən getdim. Qəbələyə çatanda telefonu söndürdü. Gecə tanımadığım yerdə tək qaldım. Gördüm sığınacaq yer yoxdur, getdim məscidə. Molla dedi ki, gəl burda qal. Sonra dedi ki, səni evə də apararam. Mən də qorxub qayıtdım. Qəbələdə polisə gedib şikayət edəndən sonra gecə ilə Bakıya qayıtdım. Sonra mənə yenidən zəng elədi və taksi ilə pulu göndərdiyini dedi. Pulun cəmi 1960 manatını verdi. Mən aldığım qızılların pulunu bankdan kredit götürərək vermişəm".

Məhkəmə prosesi iyulun 29-da davam edəcək. Prosesdə digər zərərçəkmişlər ifadə verəcək.

❑ **İ.MURADOV**

YENİ MÜSAVAT
N 154 (6475) 18 iyul 2016

# İŞİD-in hədəfində olan şiə ziyarətgahları Bakıda necə qorunur?

## Əməkdaşımız bu məkanlardakı təhlükəsizlik durumunu araşdırıb; **ekspert:** "Xüsusi bir informasiya olmadan mühafizəni gücləndirmək əhalidə çaşqınlıq yarada bilər..."

**Məlum olduğu kimi, İŞİD terror təşkilatının əsas hədəflərindən biri də şiələrin ziyarətgahları və məscidləridir. İraqda, Suriyada şiə məscidlərinin tez-tez partladılması və yüzlərlə müsəlmanın həlak olması da bunun göstəricisidir.**

Bütün bu faktlar ölkəmizdə də şiə ziyarətgahlarının və məscidlərinin mühafizəsini gücləndirməyin vacib olduğunu göstərir. Çünki Azərbaycan da İŞİD-in hədəfində olan və bu terror təşkilatından təhdid almış ölkələrdən biridir. Bəs, görəsən Azərbaycanda məscidlər, kütləvi ibadət yerləri, ziyarətgahlar necə qorunur?

Bu suala cavab tapmaq üçün Azərbaycandakı ən qədim müqəddəs ocaqlardan biri olan, Bibi Heybət ziyarətgahına baş çəkib, oranın necə mühafizə olunması ilə maraqlandıq.

Qeyd edək ki, Bibi Heybət ziyarətgahı XIII əsrdə Şirvanşah II Fərruxzad tərəfindən tikilib. Buradakı 4 məzarda şiələrin VII imamı Museyi Kazımın (ə) qızı, VIII İmam Rzanın (ə) bacısı Həzrəti Həkimə xanım və imam Museyi Kazımın (ə) daha 3 nəvəsi yatır. Bura Bakının ən böyük məscidlərindən biri olmaqla yanaşı, həm də müqəddəs ziyarətgahdır.

Təhlükəsizlik tədbirlərinə gəlincə, ziyarətgahın həyətinə daxil olarkən qapının ağzında dayanan mühafizəçi gələnlərə nəzarət edir. Əlindəki dedektorla şübhəli görünən iri çantaları yoxlayır. Digər mühafizəçi isə ziyarət yerində müşahidə aparır. Bundan başqa demək olar ki, məscidin hər yerində müşahidə kameraları var. Həm ziyarətgahın həyətində, həm də içəridə, dəstəmaz yerlərinin girişində, koridorlarda, giriş qapısında müşahidə kameraları yerləşdirilib. Bu kameralar isə ümumi müşahidə otağında, mühafizə sisteminin rəhbəri tərəfindən izlənilir. İçəridəki monitorlardan təxminən 10-dan artıq monitor eyni zamanda izlənilir. Bundan əlavə məscidin öz işçiləri də mülki geyimdə nəzarət həyata keçirir.

Həmin işçilərdən birinin sözlərinə görə, hər həftənin cümə günü camaat namazı qılınarkən və ya dini bayramlarda, Aşura məclislərində məscidə mühafizə xidmətindən əlavə polis də nəzarət edir. Bir sözlə, insanların kütləvi olduğu günlərdə polis təhlükəsizliyi təmin edir.

Qafqaz Müsəlmanları İdarəsindən rəsmi icazə almadığımız üçün məscid rəhbərliyindən açıqlama ala bilməsək də, ümumi mühafizə sistemi ilə bağlı bunları öyrənə bildik.

Qeyd edək ki, Qafqaz Müsəlmanları İdarəsinin nəzarətində olan digər böyük məscidlər də xüsusi qaydada, həm mühafizə sistemi, həm də təhlükəsizlik kameraları ilə qorunur. Həmçinin, bu məscidlərdə kütləvi ibadətlər zamanı təhlükəsizliyi dövlətin hüquq-mühafizə orqanları təmin edir. Bu baxımdan Bibi Heybət Məscidində də son hadisələrdən sonra təhlükəsizlik tədbirləri gücləndirilib.

Ekspertlər də məscidlərin mühafizə edilməsinin vacibliyindən danışsalar da, təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə ehtiyac duymurlar. Hesab edirlər ki, bu insanlarda səbəbsiz yerə xof və narahatlıq yaradacaq.

Milli Məclisin deputatı Fazil Mustafa "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, təhlükəsizlik tədbirləri təkcə məscidlərdə yox, hər yerdə artırılmalıdır: "Mən məscidlərin daha çox hədəfdə olduğuna inanmıram. Terrorçular daha çox insanların kütləvi toplaşdıqları hava limanlarında, parklarda öz əməllərini həyata keçirməyə üstünlük verirlər. O baxımdan bəzi ölkələrdə bu məscidlərdə baş verənlərin hamısını İŞİD-lə əlaqələndirmək olmaz. Hər şeyin İŞİD tərəfindən edilməsi də bir az inandırıcı görünmür. Həmin dövlətlərin özlərinin hansısa təxribatlarının olması da istisna deyil. Suriyada, İraqda daha çox məzhəblərarası konfliktlər var, Azərbaycanda belə bir qarşıdurma yoxdur. Ola bilər ki, şifahi olaraq söz səviyyəsində mübahisələr ola bilər, lakin ciddi bir problem yoxdur. Bu mənada mühafizə hər yerdə təşkil olunmalıdır, məscidlərin xüsusi qaydada qorunmasına ehtiyac görmürəm".

Milli Təhlükəsizlik Nazirliyinin istefada olan polkovnik-leytenantı İlham İsmayıl isə qeyd etdi ki, İŞİD tərəfindən məscidlərin hədəfə alınması Azərbaycan üçün aktual deyil: "Mən özüm də İŞİD təhlükəsindən yazmışdım, ancaq Azərbaycan bu dəqiqə İŞİD-in hədəfində deyil. Hədələri var, bizə hədələr göndərirlər, fərdi olaraq da polis işçilərinə hədələr göndərirlər. Lakin bu saat özləri də bilirlər ki, Azərbaycanda şiə məscidini hədəfə götürsələr, çox pis reaksiya ilə qarşılaşa bilərlər. Təhlükəsizlik tədbirləri isə təkcə məscidlərdə yox, hər yerdə olmalıdır. Bütövlükdə Azərbaycanın İŞİD təhlükəsindən qorunması üçün tədbirlər görülməlidir. Lakin yalnız məscidlərin mühafizəsinin gücləndirilməsi həm əlavə maliyyə imkanları tələb edir, həm məscidlər elə dindarlar tərəfindən, öz işçiləri tərəfindən qorunur. Ona görə də xüsusi bir informasiya olmadan mühafizəni gücləndirmək əhalidə çaşqınlıq yarada bilər. Bu səbəbdən hər yer üçün ümumi mühafizə lazımdır".











❑ Nərgiz LİFTİYEVA
❑ Fotolar müəllifindir

# İnəkli turizm və ipəzor məhbusları



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Ogün Rusiya mətbuatında oxudum. Bir əsr öncə alman diplomatı Aleksander von Villersin tutduğu tətil gündəliyindən maraqlı bir parça yayımlamışdılar: "Çamadanı topla, onu aç, sonra yenidən yığ. O minik vasitəsindən bu birinə min, istidən bişə-bişə mənzil başına çatmağa çalış... Saygısız qarsonlarla dolu yeməkxanalar, bərbad yeməklər, insanın tüstüsünü təpəsindən çıxaran hesablar... Pul, pul, pul... Belə bir sıxıntıya insan niyə tab gətirir ki?"**

Mən oxuyanda şoka girdim. Adam bir əsr öncə - yeni turizmin bu qədər çiçəklənmədiyi, seçimlərin və imkanların bu qədər çeşidli olmadığı dönəmdə yazıb bunları. Amma elə bil bugünkü Azərbaycanı təsvir edib. Pul, narazılıq, çatışmazlıq....

Türkiyədə son günlər baş verən hərbi çevriliş cəhdini, son aylardakı terror olaylarını görəndə istər-istəməz ayağın qardaş ölkədən soyuyur. Adamlar turizm sektorunda cənnət yaradıblar, ona söz yox. "Full paket", "yox yoxdur" sistemi sayəsində xarici turistlərin sevilən məkanına çevrilmişdi Türkiyə... Keçmiş zamanda ona görə yazıram ki, ən azı bu yay Türkiyəyə istirahətə getmək istəyən turistlərin sayı 80-90 faiz azalacaq. Məntiqlə azərbaycanlıların dayanacaq yeri elə ölkəmizin turizm bölgələri olmalıdır. Və burda da yerli turizm üçün yaşıl işıq yanır. Məşhur məsəldə deyilən kimi, həyat sənə limon verirsə, ondan limonad düzəltməlisən. Hər nə qədər ağrılı bir şərait olsa da, bu şansdan yerli turizm adına yararlanmaq olar.

İnsafən, tikiblər də, ildən-ilə də yaradırlar. Amma turizm sahəsində irəlilədiyimiz bu 10 ildə adına uğur dediyimiz nəsnələr çox azdır. Bizim turizm bölgələrimizi gəzib dolaşandan, ""istirahət" edəndən sonra insanda ancaq bir təəssürat yaranır - yolunmuş qaz... Bəli, özünü məhz o cür hiss edirsən, psixologiyana bu əhval hakim olur. Məkan sahibi sənin bir daha ora gəlməyəcəyini bildiyi üçün "nə qopartdımsa, qopartdım" prinsipi ilə hərəkət edir. Və düz də bilir - sən bir daha ora getmirsən.

Halbuki indi şəhərin mərkəzinə çıxanda adda-budda gördüyümüz rus, iranlı, çinli turistlərin üzünü Qaxa, Xaçmaza, Şəkiyə, İsmayıllıya, Xəzər sahillərinə döndərmənin nə yeri vardı? Zarafat deyil, təkcə Nabranı götürək. Bir tərəfdə meşə, o biri tərəfdə dəniz. Günün bəlli saatında dənizə gir, digər saatında piknik et. Reklam rolikində deyilən kimi, ikisi bir arada. Amma sağ olsunlar, bizdə Nabran dənizi deyilən kimi, ağla insanlardan çox inəklər gəlir. Bilənlər bilir, çimərliyin müəyyən hissələri sırf inəklərin gəzinti yeridir. Xarici turistin inəkli tək bir fotonu görməsi yetərlidir ki, üzünü burdan döndərsin. İlisuda o cür, Şəkidə, Şamaxıda da başqa problem. Sanki adamlar and içiblər, şərtləşiblər - qoy gələni iyrəndirək, bezdirək... Yemək seçimi yox kimidir. "Lülə, tikə, basdırma" üçlüyündən başqa, heç nə bilmirlər az qala. Servis, qulluq, müştəri ilə davranma mədəniyyətindən isə heç danışmıram. Ofisiantın bircə dəfə müştəriyə "ağsaqqal", "ay xala", "gəlin" deyə müraciət etməsi kifayətdir ki, turizm anlayışının içinə... gül qoyulsun...

Gül demiş, bu günlərdə sosial şəbəkədə dilimizə daxil olan yeni, gül kimi sözlər hay-küyə səbəb oldu. Dedilər ki, guya "ipəzor", "sürənə" və "geyçim" sözləri artıq bəzi sözləri əvəzləmək üçün lüğətimizə daxil olub. Az keçmədən təkzib olundu. Dilçilik İnstitutundan bildirildi ki, sosial şəbəkədə yayılan bu iddialar heç bir reallığı əks etdirmir. Yəni, bu sözlər ictimaiyyətə dilçi alimlər təklif etməyib, onlar İnstitutun Elmi Şurasında müzakirə olunmayıb və sosial şəbəkədə müzakirəyə çıxarılan bu tipli sözlər müəyyən qrup insanların uydurmasıdır. Nazirlər Kabineti ttp://www.cabmin.gov.az/yanında terminologiya komissiyası sədrinin müavini, filologiya elmləri doktoru, professor Sayalı Sadıqova isə deyib ki, bu sözləri ortaya çıxaran şəxslər barədə Ədliyyə Nazirliyinə müraciət etmişik və həmin şəxslər barəsində hüquqi tədbir görüləcək. Deməli, yenə məhbus kateqoriyası meydana gələcək: ipəzor məhbusları....

Zarafat bir yana, çox sevindim. Elə bildim, üstümdən bir yük götürüldü. Onsuz da dilimiz haqda "Gözəl ağa çox gözəl idi..." deyə danışırıq hər zaman. Bir də onu "ipəzor"la zorlamanın nə mənası var?

Ona qədərsə... Azərbaycanda kimin hansı sözlərdən necə istifadə etməsinin heç bir önəmi yoxdur. Onsuz da əksəriyyət yalan danışır. Yalanı hansı sözlə təqdim etmənin bir fərqi varmı?

# Azərbaycanlı məşhurlar niyə döyüldü?

## Nigar Camal: "Bizə düşmən lazım deyil..."

**Bu günlərdə mətbuatda "Eurovision 2011" təmsilçimiz Nigar Camal və müğənni Röya Ayxanın əri Anar Cəlilovun vəhşicəsinə döyüldüyü barədə məlumatlar yayılıb.**



Müğənni Nigar Camalın döyülməsi haqda 1xəbər.com saytı məlumat yayıb. Məlumata görə, Nigar Camal sevgilisinin qohumları tərəfindən döyülüb. Belə ki, müğənni Azərbaycanın yüksək vəzifəli məmurlarından birinin Türkiyədə yaşayan oğlu ilə eşq yaşayıb. İfaçının yaxın çevrəsindən əldə olunan məlumatda bildirilir ki, Nigar Camal mütəmadi olaraq sevgilisi ilə Türkiyədə görüşüb. Sevgilisinin yüksək vəzifəli məmurun oğlu olması ona problemlər yaşadıb. 20-21 yaşlı subay övladlarının iki uşaq anası ilə görüşməsi oğlanın valideynlərini narahat edib. Valideynlər bunun qarşısını dəfələrlə almağa çalışsalar da cəhdləri boşa çıxıb. Sevgililəri ayırmaq mümkün olmayıb. Cəhdlərinin boşa çıxdığını görən valideynlər çıxış yolunu Nigar Camalı qorxutmaqda görüblər. Bundan sonra ifaçı məmurun adamları tərəfindən möhkəm döyülüb. Həyati təhlükənin reallığını dərk edən ifaçı ayrılmaq qərarını verib.

Musavat.com-un məlumatına görə, bu günlərdə Londona səfər edən müğənni Nigar Camal sosial şəbəkədə bu məsələyə öz münasibətini bildirib. "İnstagram" səhfəsindəki izləyicilərinin "Döyülməyiniz doğrudurmu?" sualına müğənni bu cür rəy bildirib: "Yox, öldürüblər, sadəcə cəhənnəmdə Wi-Fi tapıb yazıram (gülümsəmək işarəsini qeyd edib). Əlbəttə ki, xeyr". İzləyicinin "bu cür xəbərləri yayan saytları cəzalandırmaq lazımdır" şərhinə isə müğənni "sözsüz, bizə düşmən lazım deyil" cavabını verib.

Qeyd edək ki, Nigar Camal 2005-ci ildə kiprli Haluk Camalla ailə həyatı qurub və bu izdivacdan iki qızı var. Ötən il müğənni mətbuata açıqlama verərək ərindən boşandığını bildirmişdi.

Gündəmin qalmaqallı xəbərlərindən biri də müğənni Röya Ayxanın keçmiş əri Anar Cəlilovun gecə klublarının birində vəhşicəsinə döyülməsi barədə yayılan məlumatlar oldu. Qeyd edək ki, Anar Cəlilov "Çudo Peçka" mağazalar şəbəkəsinin rəhbəri, iş adamı Çingiz Cəlilovun oğludur.

AzNews.az saytının məlumatına görə, hadisə Bakının məşhur gecə klublarından birində baş verib. Hadisə nəticəsində Anar Cəlilov və onunla birlikdə kluba gələn qardaşı mühafizəçilər tərəfindən şil-küt edilib. Bir neçə nəfər tərəfindən döyülən A.Cəlilovun sifəti darmadağın edilib. Döyülən şəxslər aldıqları ciddi xəsarətlə xəstəxanaya çatdırılıblar. Hadisə ilə bağlı Nəsimi rayon polis idarəsində cinayət işinin açıldığı bildirilir. Hadisəni törədən mühafizəçilər saxlanılıb. Saytın yaydığı məlumata görə, mühafizəçilər A.Cəlilovun döyülməsinin səbəbini həddindən artıq sərxoş vəziyyətdə kluba daxil olmaq istəməsi və orada qadınlara qarşı nalayiq ifadələr işlətməsi olub. Xəbərdarlığa baxmayaraq A.Cəlilov sakitləşməyib, əksinə mühafizəçilərin üzərinə hücum edib.

Məsələ ilə əlaqədar dəfələrlə Nəsimi Rayon Polis İdarəsi ilə əlaqə saxlasaq da telefon zənglərimiz cavabsız qaldı. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə isə "Yeni Müsavat"a bildirdi ki, məsələ ilə əlaqədar məlumatları dəqiqləşdirdikdən sonra açıqlama verə biləcək.

Keçmiş ərinin döyülməsi xəbərinə müğənni Röya Ayxanın da münasibətini öyrənməyə çalışdıq. Müğənninin mətbuat katibi Türkan Məmmədli bu cür məsələlərdə müğənninin adının hallanmasını pisləyib: "Ümumiyyətlə bu məsələnin bizə aidiyyəti olmamalıdır. Niyə hər dəfə Anar Cəlilovla bağlı bir yazı dərc olunanda mütləq Röyanın adı da hallanır burda? Hər kəsin şəxsi həyatı var. Onunla bağlı nə baş verirsə bizimlə nə əlaqəsi var? Çox xahiş edirik ki, bu cür xəbərlərdə Röyanın adı hallanmasın".

"Röya Ayxanın bu məsələ ilə bağlı bir məlumatı varmı" sualımıza mətbuata katibi bu cür cavab verdi:

"Bu barədə Röya xanımla danışmamışıq. Amma məlumatı olsa nə olacaq ki, nəyə qarışacaq?".

Xatırladaq ki, müğənni Röya Ayxan Anar Cəlilovun ikinci həyat yoldaşı olub. Onların bu evlilikdən Hüseyn adlı oğlanları var. 2014-cü ildə A.Cəlilov "İnstagram" səhfəsində müğənni ilə rəsmən boşandıqları haqda məlumat yaymışdı.

❑ **Xalidə GƏRAY**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Elan**

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhməd alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**

**Əlaqə telefonu: (070) 335-90-15.**



# Şəmkirdə 17 yaşlı iki gənc dəhşətli avtoqəzada öldü

**Ötən gecə Şəmkirdə baş vermiş ağır yol qəzasında ölən şəxslərin adları məlum olub. Lent.az-ın məlumatına görə, Şəmkir-Daşkarxana yolunda aşan "VAZ 21 099"un rayon sakini 17 yaşlı Sərvan Rəhimov tərəfindən idarə edildiyi məlum olub. Qəza zamanı sürücü ilə yanaşı, sərnişini, 17 yaşlı Elburus Nəcəfov da hadisə yerində ölüb. Digər sərnişin, 16 yaşlı Elnur Həsənov isə xəstəxanaya yerləşdirilib.**

Bildirilir ki, qəzaya yüksək sürət səbəb olub. Faktla bağlı Şəmkir rayon Polis Şöbəsində cinayət işi açılıb, araşdırma aparılır.



# Azərbaycanda viruslu yumurta satılır

**Azərbaycana salmonella virusu ilə zəngin təhlükəli yumurta satılır. Bu barədə virtualaz.org-a Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov məlumat verib. Onun sözlərinə görə, yumurta biznesi ilə məşğul olan şəxslərin AİİB-ə verdiyi məlumata görə, son aylar Türkiyədən Azərbaycana idxal olunan yumurtalar istehsal olunduğu ölkədə yararalılıq vaxtı keçmiş məhsullardır:**

"Bizə Türkiyədən idxal olunan heç bir əmtəə markalanması olmayan, əksər hallarda salmonella virusu ilə zəngin təhlükəli yumurtalardır. Qablaşdırılmasında və müşayiətedici sənədlərində buraxılma və son yararlılıq tarixləri olmayan, qırmızı rəngli kasetlərə qablaşdırılmış bu yumurtalar uzun məsafə qət edərək, gömrük mənətəqələrində isti yay şəraitində günlərlə qalaraq təhlükə mənbəyinə çevriliblər".

Ekspertin sözlərinə görə, Azərbaycana Ukrayna Respublikasından son ayda idxal olunan, müəmmalı şəkildə, əsasən ərəb dilində markalanmış "ULAR" dondurulmuş toyuq budları, "Frozen chicken" - "Katkut" markalı dondurulmuş toyuqları istehsal prosesində 30%-ə qədər su ilə zənginləşdirilib dondurulmuş və yerli bazarda haqsız rəqabət şəraiti yaratmaqla satışa çıxarılıb. Bu məhsulların 1 kq-nin donunu açdıqda 650-700 qr toyuq məhsulu əldə olunur ki, bu da istehlakçıların aldadılması və çox su əlavə edilməklə malın keyfiyyətinin pozulması ilə xarakterizə olunur.

E.Hüseynov qeyd edib ki, ölkənin əmtəə bazarının sürətlə çirklənməsi çoxsaylı mal və xidmətlərin intensiv artdığı bu şəraitdən "Azad İstehlakçılar" İctimai Birliyi (AİİB) son dərəcə narahatdır: "Adı qeyd olunan malların təhlükəsizliyinin təmin olunması və ya satışının, idxalının qadağan olunması ilə bağlı AİİB Azərbaycan Respublikasının baş nazirinə, kənd təsərrüfatı nazirinə, Gömrük Komitəsinin sədrinə, iqtisadiyyat nazirinə, səhiyyə nazirinə və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə rəsmi müraciətlər göndərilib. Ümid edirik ki, hökumət birtərəfli - "yalnız iş adamlarını dəstəkləyən siyasət"ini dəyişərək, dövləti də, ordunu da, məmuru da saxlayan, ümumiyyətlə, biznesi mövcud edən istehlakçılara doğru üzünü çevirəcək".

YENİ MÜSAVAT
N 154 (6475) 18 iyul 2016

**İnsan hər zaman öz həyatından razı olmur. Nələrisə düzəltmək istəyirsən, amma alınmır. Yeni işlər, planlar və... bəzən uğursuzluq. Bəs, uğurun bir düsturu yoxmu? Həqiqətənmi hər zaman şansa ehtiyacımız var? Bunu yönləndirəcək, işlərimizi, əhvalımızı, enerjimizi daim nəzarətdə saxlayacaq birilərinin yardımından istifadə etsək, necə olar?**

# Həyat mühəndisləri - həyatınızı onlara etibar edin!

## Onlar ev tikmirlər, insan həyatı inşa edirlər...



Dünya elmi bu peşə sahiblərini tanıyır. Onların adı həyat mühəndisidir. Tez-tez depressiyaya düşən, yanlarında daim önəmli qərarlar verməsi üçün adamlara ehtiyac olan məşhurlar, eləcə də iş adamlarının danışmanı, məsləhətçisi hər zaman olur. Bizim dilimizdə bu peşənin konkret adı yoxdur. Ona görə də biz onu öz təyinatına uyğun şəkildə, yəni həyat mühəndisi adlandıracağıq.

### Əlinizi uzadın, həyat mühəndisi onu tutacaq

Həyat mühəndisliyi psixoloji problemləri olmayan və normal davranışlar sərgiləyən fərdlərin hədəflərinə daha sürətli və təsirli çatmasına yardımçı olmaq məqsədilə göstərilən professional bir xidmətdir. Bu peşə yiyələri psixoloqların və psixiatrların mütəxəssislik sahəsinə daxil olan anormal davranışlarla, psixoloji xəstəliklər və problemlərlə maraqlanmırlar. Çünki ancaq normal insanlar daha çox uğur qazanmaq arzusuna düşürlər. Yəni burda müalicə yox, inkişaf xətti özünü göstərir.

Yaxşı, bəs bir insan nə vaxt həyat mühəndisinə müraciət etmək istəyə bilər? Birincisi, həyatda heç bir şey uğur, müvəffəqiyyət qədər tez itirilmir. Yəni işimizdə, evimizdə və özəl həyatımızın digər sahələrində qazanmış olduğumuz uğurlar daimi deyil. Bu gün qarşılaşdığımız problemlər dünən çözə bilmədiyimiz problemlərə heç oxşamır. Bundan başqa, ailəmizin, iş yerindəki rəhbərliyin də bizdən gözləntiləri gün-gündən dəyişir. Bu dəyişim zamanında isə düzgün qərarlar vermək üçün bir mütəxəssisə ehtiyac var. Çünki testdən keçirmə-yanılma üçün yetərli zamanımız yoxdur. Məhz bu zaman insanlar sözügedən mütəxəssislərin qapılarını döyürlər.

### Onlar bir günlük məsləhətçi deyillər

Həyat mühəndisi nələr edir? Birincisi, şəxsi hədəflərinizə çatmaq üçün sizə bir yol xəritəsi təqdim edir. Öz sahəsində uğur qazanmış minlərlə insanın həyat boyu əldə etdikləri təcrübələri sizin nəzərinizə çatdırır. Bu təcrübələrin ortaq cəhətlərini araşdırır və hər insanın istifadə edə biləcəyi strategiyalar formasına çatdırır. Həyat mühəndisi bir günlük məsləhətçi və ya danışman deyil, daimi bir dəstəkçi sayılır. Ehtiyac duyduğunuz hər an sizi tənqid və ya mühakimə etmədən, praqmatik, praktik çıxış yolları təqdim edir. Bu məslək yiyələri müraciət edənlərin "niyə" sualından heç xoşlanmazlar. Sadəcə, çıxış yolları tapıb, onu həyata keçirməyə fokuslanırlar. O ki qaldı bu sahənin get-gedə sürətlə dünyanı bürüməsinə, mütəxəssislər hesab edir ki, buna səbəb insanların artıq ata-anaları kimi səbirli olmaması, hədəfə çatmaq üçün vaxtla yarışmaq istəməməsidir.

İş həyatındakı ilk modern həyat mühəndisi 1950-60-cı illərdə ABŞ-da meydana çıxıb. Şirkət müdirləri öncə iş və şəxsi həyatlarındakı problemləri müzakirə etdikləri psixoloqları hamıdan gizli saxlasalar da, sonradan bu məsləyin formatı da dəyişdi. Bir həyat mühəndisi müştərisini bəzən bir-iki gün, bəzənsə bir neçə ay ərzində hədəflərinə çatdıra bilir. Baxışları dəyişdirmək, çətinlik çəkdikləri məqamlarla bağlı fikir mübadiləsi aparmaq üçün tərəflərin tez-tez görüşməsinə ehtiyac duyulur. Bir çox danışmanlıq münasibəti dəyişən hədəf və arzulara uyğun olaraq illərcə davam edə bilər. Hazırda Amerika və Avropa başda olmaqla, 40 ölkədə 10 mindən artıq adam bu sahədə çalışır. Həyat mühəndislərinin bu qədər populyarlaşmasının səbəbi isə qısa müddətdə böyük nəticələr verməsidir.

### İşinizi sevmirsizsə, sevdirəcək...

Bu sahə mütəxəssisləri 2 qrupa bölünür. Bunlardan biri Karyera mühəndisi (iş dünyası, idman, sənət, siyasət sahəsində), digəri isə şəxsi həyat mühəndisidir (motivasiya, münasibətlər, ünsiyyət, gözüaçıqlıq sahəsində). Karyera mühəndisinə, demək olar ki, bütün sahənin insanları müraciət edə bilər. Hətta orta məktəbi yenicə bitirən gənc də. Çünki onun karyerasını hansı sahədə qurması üçün öncə təhsil alacağı sahəni seçməsi önəmlidir. Məsələn, bu gün bir çox insan sevmədiyi, bacarmadığı sahədə işləməyin ağrısını yaşayır. Amma karyera mühəndisinə müraciət edənlər üçün belə bir risk yoxdur.

Daha bir maraqlı məqam isə karyera mühəndisinin sizə işinizi sevdirməsidir. Səhər ayağınız sürünə-sürünə getdiyiniz iş yerinə daha həvəslə, həyat enerjisi ilə qaçmanızı təmin edir bu mühəndislər. Yəni iş yeri sadəcə pul qazanıb, gündəlik qayğılarınızı həll etmə vasitəsi yox, bizi hədəflərimə aparan əyləncəli yol ola bilər.

Münasibət mühəndisliyi isə tamam başqa bir aləmdir. Sevgilisi, həyat yoldaşı, həmkarları, hətta uşaqları ilə münasibətlərində problem yaşayanlar isə münasibət danışmanının yanına qaçırlar. Münasibətlərimizin keyfiyyəti bəzən bütün həyatımızı təsir altına alır. Bunu normal səviyyədə təmin etmək üçünsə öncə insanın özü ilə münasibətini düzəltməsi lazımdır. Yəni özü ilə barışmaq, öz səhvlərini görmək, özünü anlamaq...

Bu üç sınaqdan üzüağ çıxa bilənlər çevrəsi ilə də problemlər yaşamırlar. Və münasibət mühəndisləri günün hər saatında hər intriqalı situasiyada insana məsləhət verə bilir. "Ərimlə dalaşdım, deyəsən ayrılma nöqtəsinə çatmışıq"dan tutmuş, "Müdir məni danladı, bu gedişlə işdən qovacaq" təlaşına qədər. Hər ana uyğun çıxış yolu var.

### Uğura çatmanız üçün 6 ay bəs edəcək?

Keçək işin məsrəflərinə. Bütün dünyada qəbul olunmuş bir qayda var. Yaşam mühəndisinə müraciət edənlər üçün ilk seans pulsuzdur. Bu ilk seansda tərəflər bir-birini yaxından tanıyır. Müştəri mühəndisinə həyatının bundan sonrakı hissəsində konkret nə etmək istədiyini başa salır. Karyera, sağlamlıq, maddi durum, münasibətlər, təhsil, hobbilər, sosial sahə, ruhsal həyat... Bundan sonra həyat mühəndisi müştərisi ilə birgə bir sxem hazırlayır və həmin yoldakı hədəflər müəyyənləşdirilir.

Müştəri 3 və ya 6 aylıq hədəflərlə bağlı müraciət edibsə, kurs 12 həftə davam edir. Hər həftə bir gün bir saatlıq seans üçün tərəflər bir araya gəlirlər. Maksimum bir saat davam edən seanslarda həftəlik strategiya müəyyənləşdirilir. Maraqlıdır ki, bu seansların üz-üzə həyata keçirilməsi vacib deyil. Dünyanın bir çox ölkələrində belə seanslar telefonla gerçəkləşdirilir. Hədəflərə çatan müştəri kurs sonrası 6 ay müddətində isə həyat mühəndisini baş verənlərin kursunda saxlamalıdır. Uğur zolağından çıxmaması, əziyyətlərin boşa getməməsi üçün.

Qiymətə gəlincə, müştərinin kimliyindən, daha doğrusu hədəflərindən asılı olaraq, seansın məbləği dəyişir. Amerikada (ən çox bu ölkədə yayılıb) seans məbləği 50-250 dollar arasında dəyişir. Ən yüksək məbləği seanslar iş həyatının üst pillələrində olub da, çoxlu problemlər içində boğuşan insanlara aiddir. Türkiyədə isə qiymətlər nisbətən aşağıdır - 30-150 manat arası...

❑ **Sevinc TELMANQIZI**



# Qəfil ölümlərin daha bir səbəbi - anjio

## Adil Qeybulla: "Onun riskli tərəfləri də var və bu, xəstəyə izah olunmalıdır"

**Bu gün insanlar arasında sorğu keçirilsə, onların əksəriyyətinin ürək ağrısından əziyyət çəkdiyini görərik. Təəssüflər olsun ki, yaşından, ixtisasından, necə yaşamasından asılı olmayaraq, ürək zaman-zaman insana var olduğunu hiss etdirir. İstər ağrı, istərsə də müxtəlif sancmalar insanları təşvişə salır və həkimə getməyə məcbur edir.**

Bu gün tez-tez eşidilən fikirlər arasında "filankəs anjio əməliyyatı olub" ifadəsini eşidirik. Çox zaman anjio əməliyyatı normal keçsə, xəstə özünü yaxşı hiss etsə də, sonradan əməliyyat keçirmiş şəxsin qəfildən dünyasını dəyişdiyini eşidirik. Buna isə səbəb çox zaman anjio keçirən insanların yemək yeməsi, qaydalara düzgün riayət etməməsi göstərilir. Hətta bəzi hallarda həkimlər səhər anjio əməliyyatı keçirən insanın artıq axşama hər zamankı kimi işləri ilə məşğul olduğunu deyirlər ki, bu da ölümə aparan səbəblərdən biri kimi göstərilir.

Əslində anjio əməliyyatı keçirən insan bir neçə həftə diqqətli olmalıdır. Xəstə qəfil hərəkətlər etməməli, ağır qaldırmamalı, siqaretdən, alkoqollu içkilərdən uzaq durmalıdır. Xəstə təxminən olaraq 2 həftəyə qədər avtomobil sürməməli, ayaq üstə hansısa iş görməməli, həmçinin, çox oturmamalıdır. Anjio keçirmiş şəxs gündə iki, üç litr maye qəbul etməli, qatı, yağlı yeməklərdən uzaq durmalı, yemək vərdişini dəyişməlidir.

Maraqlıdır, bəs ürək-damar xəstəsi olub-olmadığımızı necə bilə bilərik?

Mütəxəssislər ən pisinin ağrısız gələn ürək probleminin olduğunu deyir ki, o da qəfil ölümün səbəblərindən biridir. Sinənin ortasında, mədə nahiyəsindən başlayıb boyuna qədər və yaxud alt çənəyə qədər olan ağrılar ürək-damar ağrılarıdır. Bu ağrı göynədici, yandırıcı, basqı və yaxud sıxılma şəklində olur. Xəstələrin bəzilərində sadəcə mədə, alt çənə və boyunda ola, hər iki qola, çiyinə yayıla bilər. Bəzi insanlarda heç ağrının olmaması da mümkündür. Bu cür insanlar ən şanssız qrupdur ki, qəfləti ölümlə qarşılaşırlar.

Bəzən xəstədə ürək ağrısı xarakteri daşımayan ağrılar da ola bilər. Adətən sancı, batma, "ürəyim ağrıyır" deyərək sol tərəfi göstərən insanlardakı ağrılar ürək ağrısı deyil. Batma, qulunc deyilən yerlərdəki ağrılar əzələ ağrılarıdır. Ürək-damar sistemi xəstəliklərinə tutulmamaq üçün qida çox önəmli rol oynayır. Ürək xəstəliuklərinə tutulmaq istəməyən insanlar qırmızı ətdən uzaq durmalıdır. Əsasən toyuq, balıq əti yemək lazımdır. Onların da içalatlarından uzaq durmaq lazımdır. Xəmir xörəkləri, kərə və qatı yağlardan az istifadə tövsiyə edilir. Ağ çörəkdən çox az istifadə etməli, yediyimizi tələsə-tələsə deyil, olduqca asta-asta yemək lazımdır ki, doyduğumuzu başa düşək. Çünki doyma siqnalları beyinə 20 dəqiqə sonra çatır.

Tibb elmləri doktoru, professor Adil Qeybulla anjionun riskli bir maye olduğunu dedi: "Anjio ürək damarlarının kontrastlaşdırılmasıdır və koronar damarların anjiuoqrafiyasıdır. Ürək damarların kontrastlaşdırılmasının məqsədi ondan ibarətdir ki, görək ürəyi qidalandıran damarlar hansı durumdadır. Bəzən görürük ki, kontrast damarın müəyyən hissəsinə kimi gedib orada kəsilir. Sanki ora tutulur. Yaxud da bu, damarın daralma səviyyəsini göstərir və sairə. Anjio vasitəsi ilə koronar damarların vəziyyəti və ürəyin qidalanmasını aydınlaşdırmaq mümkün olur. Amma bəzi hallarda xəstə ölü vəziyyətdə olur. Ağrı hissi olur və anjio ilə ürəyin qidalanmasında müəyyən problemlər yaranmış olur. Çünki kontras maddə ariteriyalarla ürək əzələlərinə gedir. Bu da ürəkdə olan oksigen çatışmazlığını daha da dərinləşdirir. O hallarda ola bilsin ki, paralel olaraq ürək işi ümumiyyətlə dərinləşsin və ürək əzələsi buna dözməyərək dayansın. Yəni anjio bədənə tam təsirsiz maye deyil. Onun riskli tərəfləri də var və bu xəstəyə izah olunmalıdır. Sadəcə olaraq bu, ona görə olur ki, xəstəyə peşəkar yardım göstərmək mümkün olsun və sonrakı taktika müəyyənləşə bilsin".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 154 (6475) 18 iyul 2016

# Ən mükəmməl qadın üzü "yaratdılar"

Londondakı plastik cərrahiyyə mərkəzi ideal qadın portretini yaradıblar. Onlar bunu hazırlamaq üçün kompüter kartoqrafiyasından istifadə ediblər. Məlum texnologiya sifət quruluşunun mükəmməl olması üçün bəzi dəyişiklikləri özündə ehtiva edir. Qeyd olunur ki, ideal qadın sifətinin cizgiləri mükəmməl hesab olunan məşhur simaların ayrı-ayrı hissələrinin toplusudur. Portret üçün aktrisa Ember Herdin burnu, Kim Qardaşyanın qaşları, aktrisa Skarlet Yoxansonun gözləri, Rihannanın üz quruluşu və maneken Emili Ratakovskinin dodaq quruluşundan istifadə olunub.



Daha öncə London Mərkəzinin cərrahları Ember Herdin üzünü dünyanın ən gözəl üzü hesab ediblər.



## 116 min dollarlıq sənət əsərini krossvord kimi doldurdu

Nünberqdəki İncəsənət və Dizayn Muzeyinə gələn yaşlı ziyarətçi muzeydəki bir incəsənət nümunəsini krossvord olaraq qəbul edərək onu qələmlə doldurub. Lenta.ru saytının xəbərinə görə, 91 yaşlı qadın qrupla birgə ekskursiyada olub. O, art obyektlərdən birinin yanında yazılmış "sözləri yaz" elanını görüb və bunu krossvord kimi qəbul edib. Hadisə yerinə gələn polislər də qadından izahat alıblar. Sözügedən sənət nümunəsi rəssam avanqardçı Artur Kepkeyə məxsus idi və 1960-cı illərdə yaradılıb. Onun qiyməti 116 min dollar olub. Muzey direktoru Eva Krauze deyib ki, sənət əsərinə dəyən ziyan muzey tərəfindən ödəniləcək. Onlar polisi isə sırf sənədləşdirmə işinə, sığorta ödəmələrinə görə çağırıblar: "Biz yaşlı qadına deyəcəyik ki, kolleksioner baş vermiş hadisəni yumor hissi ilə qarşıladı. Odur ki, o, indi rahat yata bilər".

# Gün ərzində 6 selfi çəkdirirsizsə....

**Psixoloqlar mobil telefonun ön kamerasının köməyi ilə öz şəklini çəkməyi sevən həvəskarları üç qrupa ayırıblar. "Azərtac"ın xəbərinə görə, birinci mərhələdə adam gündə təqribən üç dəfə öz şəklini çəkir, lakin bu şəkilləri internetdə yerləşdirmir. Şəkillərini sosial şəbəkələrdə paylaşanda artıq ikinci mərhələ başlayır. Bu mərhələdə selfi həvəskarının artıq peşəkar psixoloqa ehtiyacı olur.**

Üçüncü mərhələdə adam artıq gündə altı şəkil çəkdirərək, onları daim şəbəkədə yerləşdirir. Onun bu halı artıq nevrozdur. Bu mərhələdə adam oxucuların fikrindən o qədər asılı olur ki, daim kənar adamlardan selfiyə reaksiya gözləyir və bu asılılığın öhdəsindən müstəqil gələ bilmir.

Əvvəllər alimlər qeyd edirdilər ki, tez-tez öz şəklini çəkib internetdə yerləşdirən kişilər psixopatiyaya meyllidirlər. Bundan başqa, kişilərin şelfi həvəsi həm də özünə vurğunluğun əlamətidir.





## Terror aktı baş verən dəqiqələrdə... o körpəsini doğdu

Nitsedəki (Fransa) terror aktı zamanı bir qadın uşaq dünyaya gətirib. Lenta.ru saytının xəbərinə görə, həmin anda qadının yanında 1.5 min nəfər olub. Onlar həmin vaxt terror aktından qorunmaq üçün gizlənirmiş. Gənc qadın həmin vaxt hamiləliyinin 9-cu ayında imiş. Baş vermiş dəhşət və yaşanan qorxudan onun sancıları başlayıb. Çimərlikdə yerləşən restoran işçiləri sancısı tutan qadını mətbəxə apararaq, ətrafdakıları uzaqlaşdırıblar. Restoran sahibinin oğlu deyib ki, insanlar hətta soyuducuda da gizləniblərmiş. Həkim isə doğuşu elə döşəmədəcə qəbul edib. Bir müddət sonra isə hadisə yerinə xilasedicilər gəlib və qadınla körpəsini aparıblar.

Nitsedəki terror aktı 14 iyulda, Bastiliyanın alınması günü baş verib. Nəticədə 84 nəfər həlak olub, ölkədə üçgünlük matəm elan edilib.






**QOÇ** - Yeni əlaqələr yaratmaq fikriniz varsa, saat 15-ə qədər əzmkarlığınızı artırın. Söhbət və müzakirələr zamanı özünüzü qürurlu aparmağa çalışın. Sonrakı saatlarda isə istirahət edin.



**BUĞA** - Görəcəyiniz işləri əvvəlcədən konkretləşdirin. Unutmayın ki, ilin bu dövrü karyeranız üçün həddindən ziyadə uğurlu ərəfədir. Amma bugünkü vaxtınızı konkret olaraq sevgiyə həsr edin.



**ƏKİZLƏR** - Gileylərinizi qabartmayın. Özünüzü təmkinli, eyni zamanda qürurlu göstərin. Düşünülməmiş qərar çıxarmaq, risk etmək sizə uğur gətirməyəcək. Qohumlarınızla münasibətləri tənzimləyin.



**XƏRÇƏNG** - Əgər qarşıdakı bir həftəni səmərəli şəkildə başa vurmaq fikriniz varsa, bu gündən ciddi ölçü götürməlisiniz. Xəyallar qoynundan düşüb real addımlar atın. Müştərək fəaliyyət üçün də uğurludur.



**ŞİR** - Ehtiyatlı olun. Göy qübbəsi ciddi yanlışlığa yol verə biləcəyinizi bəyan edir. Mövcud situasiyaları kontrolda saxlamağa çalışın. Ürəyinizcə olmayan təklifləri düşünmədən təxirə salın.



**QIZ** - Bir qədər gərgin situasiyalara cəlb oluna bilərsiniz. Odur ki, iş yoldaşlarınızla və ayrı-ayrı şəxslərlə davranışlarınızı tənzimləməlisiniz. Ağlınız kəsməyən işlərə girişməyin.



**TƏRƏZİ** - Günün ümumi axarı enerjinizi ikiqat artıracaq. Bu isə şəxsi işlərinizdə böyük irəliləyişlərin start götürəcəyinə şərait yaradacaq. İndiki halda gələcəyə ümidlə baxmalısınız.



**ƏQRƏB** - Güzəştə getməyi sevməyən təbiətin bu çağında bacardığınız qədər təmkin göstərin. Yaxşı olar ki, yorucu işlərə ara verib istirahət edə, həzin bir musiqiyə qulaq asasınız.



**OXATAN** - Əşyalarla, xüsusən də elektrik cihazları ilə ehtiyatlı davranın. Əks təqdirdə xəsarət ala bilərsiniz. Axşama yaxın əsəblərinizi sakitləşdirmək üçün gəzintiyə çıxın.



**OĞLAQ** - Mənfi enerjili Ayın bürcünüzdə olması səhhətinizə mənfi təsir göstərə bilər. Bu səbəbdən də ehtiyatlı davranış, qidalara xüsusi diqqət yetirmək sizin üçün olduqca vacibdir. Yeni işlərə də başlamayın.



**SUTÖKƏN** - Mövcud sıxıntılarınıza görə dünyanı ittiham etməyin. Baş verənlərin səbəbini insanlarda və özünüzdə arayın. İxtiyarınızda olan bu təqvimdə yalnız bu barədə düşünün. Sevgi amilinə də diqqəti artırın.



**BALIQLAR** - Maliyyə sövdələşmələrində iştirak etmək üçün ideal gündür. Şəxsi büdcənizi artırmaq üçün bir az siyasətçi olun. Axşama yaxın çoxdan görmədiyiniz adamlarla rastlaşacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Camaat əli ilə yazır, o, burnu ilə...




Hindistanın Haydarabad şəhərində yaşayan Məhəmməd Xurşud Hüseyn burnu ilə kompüterdə yazı yığmaq üzrə dünya rekorduna imza atıb. Bir neçə il öncə Ginnesin Rekordlar Kitabı ekspertlərinin müşayiəti ilə 23 yaşlı kişi 47.44 saniyə ərzində 103 söz yığa bilib. Məhəmmədin çap etdiyi mətn bu cümlələrlə başlanıb: "Ginnesin Rekordlar Kitabı məni ona görə seçdi ki, mən bu mətni ən qısa zaman ərzində yığım". Yığım zamanı diqqəti yayılmasın deyə Məhəmməd gözünün birini yumub. Bundan başqa, onun əlləri boynunun arxasına bağlanıbmış. Bu rekordu əldə etmək üçün kişi son üç ildə hər gün 6 saat boyunca məşq edib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750